www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 iyul 2017-ci il Cümə № 152 (6766) Qiymәti 60 qəpik

Xəbər

## Kürdəxanı təcridxanasında intihar

yazısı səh.2-də

Gündəm

### Prezident jurnalistlərə mənzil və mühüm mesajlar verdi



İlham Əliyev: "Jurnalistlər özləri də bilmədən mənim köməkçilərimdir"

yazısı səh.3-də

### Rusiya XİN Putinin prezidentləri görüşdürəcəyi xəbərini təkzib etdi

yazısı səh.8-də

### Şəhid ailələrinə ödəniləcək "qan pulu" yenidən gündəmdə

yazısı səh.10-da

### Qüds müzakirələri: Bakı Yaxın Şərqdə aktiv diplomatiya aparır

yazısı səh.4-də

### Satışda təhlükəli broyler toyuqları var

yazısı səh.10-da

### Rüstəm İbrahimbəyov məhkəmə çəkişməsindən danışdı

yazısı səh.7-də

### İslaholunmaz Jirinovskinin bəyanatına Bakıdan sərt təpkilər

yazısı səh.8-də

### Problemli kreditlər rekord həddə çatıb

yazısı səh.12-də

### "Qarabağ" Tiraspola kaş ki, getməsəydi...

yazısı səh.15-də

### Bakı-Sumqayıt marşrutu: "ölüm avtobusları" hələ də iş başındadır

yazısı səh.14-də

### İstinin səbəbi bilindi - Azərbaycana tropik hava kütlələri daxil olub

yazısı səh.2-də

## Bakıdakı məhkəmədən düşmənə göz dağı

# LAPŞİN İŞİ: AZƏRBAYCAN ELƏ BİR DƏRS VERDİ Kİ...

Qarabağa qanunsuz səfərlər edən yəhudi blogger layiqli cəzasını aldı - 3 il; Rusiya öz vətəndaşı olan qalmaqallı bloggerdən imtina elədi - Moskvadan Bakıya maraqlı jest; Lapşinin sonrakı taleyi necə olacaq, əfv ediləcək, yoxsa ekstradisiya?..




yazısı səh.5-də

## Sabiq nazir müavinindən casus şəbəkəsi ilə bağlı sensasion iddia

Həbs edilən dəstənin hansı ölkəyə informasiya ötürməsi ilə bağlı müəmmalar; Sülhəddin Əkbər: "...Tutulanların Rusiya ilə əlaqəli olduqları bilinir, amma başqa dövlətin adı çəkilir" yazısı səh.9-da



*Mübariz Qurbanlı:*

### "Heç bir ölkəyə məxsus İslam yoxdur"

yazısı səh.6-da



### Hafiz Hacıyev müxalifət liderləri üçün ev istədi - reaksiyalar

yazısı səh.7-də



### Elçibəyin Qurban Məmmədovu baş prokuror təyin etməməsinin sirri

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 152 (6766) 21 iyul 2017

# İstinin səbəbi bilindi - Azərbaycana tropik hava kütlələri daxil olub

**"Hazırda Azərbaycan ərazisində müşahidə olunan hava şəraiti iyul ayı üçün xarakterikdir və iqlim normasına uyğundur". Bunu "Report"a açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunun İqlim və aqroiqlimşünaslıq şöbəsinin elmi işçisi, coğrafiya üzrə fəlsəfə doktoru, iqlimşünas Məhərrəm Həsənov deyib.**

İqlimşünas bildirib ki, Bakıda hazırda havanın temperaturu 35-37 dərəcə arasındadır: "Paytaxt üçün orta aylıq temperatur 26-27 dərəcədir. Ayrı-ayrı günlərdə temperatur yüksək olsa da, ortalama toplayanda orta aylıq temperatura yaxın olacaq. Ən yüksək temperatur, yəni 40 dərəcə Mərkəzi Aranda və Naxçıvanda müşahidə oluna bilər. Amma bu da sutkalık temperatur deyil, yüksək temperatur günorta müşahidə olunur".



**Onun sözlərinə görə, hazırda Azərbaycanda tropik hava kütlələri hökm sürür:** "Şimali Afrikadan, Ərəbistandan gələn hava kütlələri dayanıqlı şəkildə durur. Belə hava kütlələri adətən 3-5 gün hakimlik edir".

**Məhərrəm Həsənov qeyd edib ki, iyul və avqust ayı Azərbaycanda elə də sərin keçmir, adətən avqustun birinci ongünlüyünə qədər istilər olur:** "Növbəti günlərdə ölkə ərazisində temperatur normadan 1-2 dərəcə çox ola bilər. Amma havanın temperaturunun kəskin aşağı düşməsi gözlənilmir. Yəni 5 dərəcə fərqi ilə havanın soyuması olmayacaq, ümumi normaya yaxın olacaq".

## ÜAK məsələsi Qarabağ məsələsi kimi uzadılmaqda

**Siyasi ekspert:** "ÜAK-la bağlı məsələdən sarsıldığımızı nümayiş etdirmək lazım deyil"

**Rusiya Ali Məhkəməsinin qeydiyyatını ləğv etdiyi Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) apelyasiya şikayətinə baxılması indi də sentyabra qədər uzadıldı. Proseslərin gedişi ÜAK məsələsindən Moskvanın Azərbaycana təzyiq kimi istifadə etdiyini sübuta yetirirmi? Sanki bunu da Qarabağ məsələsi kimi süni şəkildə uzadırlar söyləmək mümkünmü?**

**Politoloq Elçin Mirzəbəyli** bildirdi ki, ÜAK-ın qeydiyyatı ilə bağlı Rusiya Ali Məhkəməsinin qərarından apelyasiya şikayətinə sentyabrın 19-da baxılması hüquqi baxımdan Rusiya qanunvericiliyinə zidd deyil. Hüquqi baxımdan konkret olaraq bu faktı təzyiq kimi qiymətləndirmək mümkün deyil. Lakin ÜAK-la bağlı məsələnin gündəmə gəlməsi və bu günə qədər atılan bütün addımlar təsadüfi sayıla bilməz: "Rusiyada çoxsaylı diaspor təşkilatları var. Onların böyük əksəriyyəti formal fəaliyyət göstərirlər. Ancaq bu günədək Ədliyyə Nazirliyinin diaspor təşkilatının qeydiyyatının ləğvi ilə bağlı məhkəməyə müraciət olunması faktına rast gəlinməyib. ÜAK-la bağlı məsələ ilk presedentdir.

Daha öncə də sizin qəzetinizə verdiyim açıqlamalarda qeyd etdiyim kimi, ÜAK-la bağlı məsələdən sarsıldığımızı nümayiş etdirmək lazım deyil. Rusiya qıcıqlandığımızı gördükdə prosesi daha da uzatmağa, divident qazanmağa çalışacaq".

Ekspertin sözlərinə görə, biz Rusiyanın Azərbaycana qarşı təzyiqlərindən təəccüblənməməliyik. Qeyri-adi heç bir hadisə baş vermir. Rusiya ənənəvi siyasətini davam etdirir.

Qeyd edək ki, iki gün öncə Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin mediaya açıqlamasında ÜAK-ın qeydiyyatının ləğvində günahkar kimi ÜAK-ın qanunvericiliyin tələblərini pozmasını bildirib. Bununla da qurumun qeydiyyatının ləğvinə dolayısı ilə haqq qazandırıb.

❑ E.SEYİDAĞA

## Hacıbala Abutalıbovun müavini Qusarda istirahət zamanı vəfat edib

**Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Rauf Pənahov vəfat edib. APA-nın xəbərinə görə, R.Pənahov istirahətdə olduğu Qusar rayonunda ürək tutmasından dünyasını dəyişib.**

Qeyd edək ki, Pənahov Rauf Əli oğlu 1937-ci ildə Bakıda anadan olub. 2001-ci ildən Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini idi.

## Vəkili keçmiş deputata bəraət istəyib

**Bakı Ağır Cinayətlər Məhkəməsində "Azərbaycan Beynəlxalq Bankı" ASC-dən kredit götürüb qaytarmamaqda təqsirləndirilən sabiq deputat Dünyamin Xəlilov və digərlərinin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

APA-nın xəbərinə görə, hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilən prosesdə D. Xəlilovun vəkili Elvin Səlimov çıxış edib. Vəkil hüquqlarını müdafiə etdiyi şəxsə qarşı irəli sürülən ittihamların məhkəmə istintaqı zamanı sübuta yetirilmədiyini deyib. Vəkil D. Xəlilova verilmiş ittihamların əsassız olduğunu deyərək, ona bəraət verilməsini məhkəmədən xahiş edib.

D.Xəlilov son söz üçün məhkəmədən vaxt istəyib.

Sonra təqsirləndirilən şəxslər - Fərhad Əmiraslanov, Seyfulla Seyfullayev, Şakir Musayev, Ruslan İsmayılov, Mənsur Zeynalov və Rauf Əliyev son söz deyiblər. Onlar əməllərindən peşman olduqlarını və barələrində ədalətli qərar çıxarılmasını məhkəmədən xahiş ediblər.

Məhkəmə prosesi iyulun 24-dək təxirə salınıb.

"Qaya Mətbuat Yayımı" MMC!
- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası ayda 26 dəfə nəşr olunan
"Yeni Müsavat" - 0.60 AZN
və bundan əlavə 2500 adda yerli
və xarici nəşrlər.
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45; 598-35-22
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.



Fuad Allahverdiyev

## "Azərtelekom"un rəhbəri dəyişib

**"Azərtelekom" MMC-nin rəhbəri dəyişib. "APA-Economics"in əldə etdiyi məlumata görə, Fuad Allahverdiyev şirkətin baş icraçı direktoru təyin olunub. F. Allahverdiyev Hakim Maimonu əvəzləyib.**

F.Allahverdiyev "APA-Economics"ə açıqlamasında faktı təsdiqləyib. O əlavə edib ki, şirkət hazırda inkişaf strategiyası üzərində çalışır və fəaliyyətini aktivləşdirmək niyyətindədir.

Qeyd edək ki, "Azərtelekom" Azərbaycanın telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə beynəlxalq naqilli telefon əlaqəsi, internet, eləcə də məlumat və səs ötürülməsini təklif etməklə, naqilli rabitə bazarında fəaliyyət göstərmək məqsədilə təsis edilib. "Azərtelekom" şəbəkəsi Azərbaycanı şimaldan cənuba və qərbdən şərqə qonşuları Rusiya, Gürcüstan və İranla birləşdirir.

Şirkətin səhmdarları "Azərfon" MMC (95%), "Aztelekom" MMC (2,5%) və "Bakı Telefon Rabitəsi" MMC-dir (2,5%).

## Bakı İstintaq Təcridxanasında təqsirləndirilən şəxs özünü asdı

**Zəminə Əliyeva:** "Samirin özünü asması rəsmiləşdirilib, lakin baş vermiş hadisəni bizdən gizlədiblər"



**Bakı İstintaq Təcridxanasında saxlanılan təqsirləndirilən şəxs Samir Səməndər oğlu Əliyev özünü asıb. Bu haqda "Yeni Müsavat"a onun həyat yoldaşı Zəminə Əliyeva məlumat verib. Deyib ki, həyat yoldaşı barəsindəki qanunsuz və əsassız hökmə etiraz olaraq özünü öldürmək istəyib. Özünü asmazdan əvvəl ərizə yazaraq hökmün sifarişli, saxta olduğunu, üzləşdiyi ədalətsizlikdən bezdiyini və ölümündə barəsində ədalətsiz hökm çıxaranları suçlandırıb.**

"Hadisə səhər tezdən baş verib. Samir gəzinti otağına keçərək orada özünü asıb. Nəzarətçilər onu tez görüblər və ölümdən xilas ediblər. Bundan sonra həyat yoldaşıma lazım olan tibbi yardım göstərilib və onu saxlandığı 5-ci korpusun 30-cu kamerasından 38-ci kameraya köçürüblər. Samirin özünü asması rəsmiləşdirilib, lakin baş vermiş hadisəni bizdən gizlədiblər. Biz biləndən sonra isə təsdiqlədilər" - deyə Zəminə Əliyeva bildirib.

**Qeyd edib ki, həyat yoldaşı barəsində çıxarılan tam ədalətsiz hökmdən sonra Azərbaycan vətəndaşlığından imtina etmək qərarı verib:** "Samir Əliyev dəfələrlə ölkə rəhbərliyinə və digər dövlət orqanlarına təqsirləndirildiyi cinayət işinin qərəzli aparılması, müstəntiq Aslan İbrahimovun qanunsuzluqları və etirazlarım barədə müraciətlər edib. Həmin müraciətlərə münasibət bildirilməyib. Bunun məntiqi nəticəsi olaraq Bakı Ağır Cinayətlər Məhkəməsi 20 iyun 2017-ci il tarixdə əsassız hökm çıxarıb, 20 il azadlıqdan məhrumetmə cəzası təyin edib. Ona görə də Samir Əliyev ailə üzvləri ilə birgə dövlət adından çıxarılan qanunsuz hökmə görə Azərbaycan vətəndaşlığından imtina edib".

**Z.Əliyeva deyib ki, həyat yoldaşı vətəndaşlıqdan imtina məktubunda yazıb:** "Ailə üzvlərimin təhlükəsizliyinin təminatı və gələcəyimi görmədiyim üçün buna məcburam. Xahiş edirəm, vətəndaşlıqdan imtina ərizəmi qəbul edin".

Xatırladaq ki, 2015-ci il iyulun 6-da Bakı-Quba yolunun 55-ci kilometrində, yolun sağ hərəkət hissəsində yandırılmış naməlum qadın meyiti tapılıb. Xızı Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdiyi əməliyyat tədbirləri nəticəsində naməlum qadının şəxsiyyəti müəyyənləşdirilib.

Meyitin 1981-ci il təvəllüdlü Bakı sakini Natəvan Əliyevaya məxsus olduğu bəlli olub. N.Əliyeva Xətai rayonunda yerləşən 191 saylı orta məktəbin direktoru Rəhimə İsmayıl qızı Əliyevanın həm gəlini, həm də qardaşı qızı olub. Az sonra qətllə bağlı şübhəli şəxs qismində mərhumun keçmiş həyat yoldaşı, sabiq polis zabiti Samir Əliyev tutulub. S.Əliyev keçmiş həyat yoldaşını qətlə yetirmədiyini bildirib. Müdafiə tərəfi bildirib ki, bundan sonra ona təzyiqlər başlayıb, zorakılığa yol verilib. İşdə S.Əliyevin cinayəti törətməsini sübut edən faktlar, sübut və dəlillər yoxdur. S.Əliyev ittihamları qəbul etmir.

❑ E.MƏMMƏDƏLİYEV

## Bu gün 38 dərəcə isti olacaq

**Azərbaycanda bu günə olan hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında iyulun 21-də hava şəraiti günəşli olacaq. Şimal-şərq, şərq küləyi əsəcək.**

Havanın temperaturunun gecə 22-26° isti, gündüz 35-38°, bəzi yerlərdə 40° isti, Bakıda gecə 23-25° isti, gündüz 36-38° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan aşağı 757 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 45-55% olacaq.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 26-27°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 27-28°, Türkan, Hövsan, Sahil, Şıxda 28-29° isti təşkil edəcək.

Azərbaycanın rayonlarında gözlənilən hava şəraiti yağmursuz olacaq. Şərq küləyi gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 20-25° isti, gündüz 35-40°, bəzi yerlərdə 42° isti, dağlarda gecə 15-20° isti, gündüz 26-31° isti olacağı gözlənilir.



## Saatlıda zəlzələ olub

**Azərbaycanda zəlzələ baş verib. APA-nın Respublika Seysmoloji Xidmət Mərkəzinin saytına istinadən verdiyi məlumata görə, iyulun 20-də yerli vaxtla saat 10:22:34-də Saatlıdan 3 km cənub-qərbdə, Saatlı ərazisində zəlzələ qeydə alınıb. Zəlzələ episentrdə 4 bal, ətraf rayonlarda 4-3 bala qədər hiss olunub.**





# Prezident jurnalistlərə mənzil və mühüm mesajlar verdi

## İlham Əliyev: "Jurnalistlər özləri də bilmədən mənim köməkçilərimdir"

## Dövlət başçısı növbəti dəfə "Jurnalistlərin dostu" mükafatına layiq görüldü

**İyulun 20-də Milli Mətbuat günü münasibətilə Azərbaycan jurnalistləri üçün prezident sərəncamı ilə tikilən ikinci binanın rəsmi açılış mərasimi keçirilib. Bakı şəhərinin Səbayel rayonu ərazisində, Yeni Salyan yolunun kənarında reallaşan açılış mərasimində Azərbaycan prezidenti İlham Əliyev iştirak edib.**

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli və Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov dövlət başçısına məlumat veriblər ki, jurnalistlər üçün inşa edilən ikinci binada 255 mənzil var. Daha sonra prezident İlham Əliyev binanın istifadəyə verilməsini bildirən rəmzi lenti kəsib və mənzillərdə yaradılan şəraitlə tanış olub.

Bundan sonra dövlət başçısı açılış mərasimində çıxış edib.

"Yeni Müsavat"ın tədbirdə iştirak edən əməkdaşı bildirir ki, dövlət başçısı Azərbaycan dövlətinin mətbuat nümayəndələrinin sosial vəziyyətinin, mənzil şəraitinin yaxşılaşdırılması üçün əlindən gələni əsirgəmədiyini, bu məsələnin dövlət siyasətinə çevrildiyini bildirib. "Jurnalistlər üçün binaların tikintisi də bu siyasətin təzahürüdür" söyləyən prezident bir neçə il öncə bina tikintisi ilə bağlı qaldırılan təşəbbüsə dəstək verdiyini xatırladıb. "4 il bundan əvvəl mən demişdim ki, yəqin bura jurnalistlər şəhərciyinə çevriləcək. Artıq bu gözəl yer jurnalistlər şəhərciyidir, burada üçüncü bina da tikiləcək. Mənə deyiblər ki, burada yeni yola ehtiyac var. Çünki yalnız bir tərəfdən yol çəkilib. Ona görə də müvafiq göstəriş olub ki, hər iki tərəfə çıxış olsun, jurnalistlər burada rahat yaşasın". **Ölkə başçısı qeyd edib ki, dəniz kənarında yerləşən binalar daha prestijli sayılır:** "Buradan "Azneft" meydanına maksimum 5 dəqiqəlik yol var, həmçinin dənizə mənzərə açılır. Bu, bir daha onu göstərir ki, biz jurnalistlər üçün ən gözəl məkanı seçmişik. Əminəm ki, vətən qarşısında böyük xidmətləri olmuş jurnalistlər burada rahat yaşayacaq".










**Prezident Azərbaycan mətbuatının qarşısında duran məsələlərdən bəhs edib:** "Biz xarici informasiya məkanına çıxışımızı daha da genişləndirməliyik. Bu istiqamətdə yaxşı nəticələr var. Çünki əvvəlki illərdə bizə qarşı koordinasiya edilmiş çox ciddi və çirkin informasiya kampaniyaları aparılırdı ki, guya Azərbaycan geridə qalmış dövlətdir, Azərbaycanda inkişaf, demokratiya yoxdur. Bunun məqsədi bəllidir - həm bizi öz təsiri altına salmaq, nəyəsə məcbur etmək və ümumiyyətlə, ölkə haqqında mənfi imic yaratmaq və ondan sonra öz maraqlarını rahatlıqla təmin etməkdir. Ona görə biz çalışırdıq ki, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdıraq və o qədər də geniş imkanlarımız yox idi. Bu gün bu imkanlar var. Həm dövlət, həm də media orqanları bu istiqamətdə fəal işləyirlər. Məni sevindirən hal odur ki, biz vahid siyasət aparırıq. Çünki dövlət və media milli maraqları müdafiə edir. Çünki ümummilli məsələlərdə heç bir kənar fikir ola bilməz. Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da jurnalistika həqiqəti əks etdirməlidir."

**Prezident deyib ki, Azərbaycan mətbuatında yoxlanılmamış, yaxud da yalan, qərəzli məlumatların sayı kəskin şəkildə azalıb:** "Bunu cəmiyyət də görür, jurnalistlər də. Əlbəttə, bu, jurnalistlərin fəaliyyəti nəticəsində mümkün olur. Bu, ilk növbədə, jurnalistlərin məsuliyyətinin artması nəticəsində baş verib. Eyni zamanda hər bir mətbuat orqanı yaxşı başa düşür ki, bir dəfə, iki dəfə, üç dəfə yalan danışmaq olar. Amma ondan sonra həmin mətbuat orqanına heç kim inanmayacaq və hörmətdən düşəcək". **Azərbaycan prezidentinin sözlərinə görə, jurnalistika mümkün qədər obyektiv olmalıdır:** "Çünki tam obyektivliyə nail olmaq çətindir. Hər bir insan istər-istəməz subyektivliyə də yol verir və jurnalistlər də istisna deyil. Ancaq jurnalistlərin üzərində çox böyük məsuliyyət var. Onların sözü incidə də, problem yarada da, yaxud da ki, məsələni həll edə bilər. Ona görə xahiş edirəm ki, jurnalistikada məsuliyyət məsələlərinə daha da böyük diqqət göstərilsin. Bu da həqiqətlə, obyektivliklə paralel istiqamətdə gedən proseslərdir".

**Dövlət başçısı deyib ki, son illərdə Azərbaycan jurnalistikası bu istiqamətdə daha da məsuliyyətli, daha da təmkinli olub. Artıq nadir hallarda hansısa məsuliyyətsiz məlumata, insanları alçaldan, ləyaqətini aşağılayan, təhqiredici yazılara rast gəlmək olar:** "Bu baxımdan, bizim jurnalistlərimiz bəzi dırnaqarası siyasətçilərdən daha da öndədirlər. Hesab edirəm ki, jurnalistikamızda bu istiqamətdə müşahidə olunan islahatlar davam edəcək. Biz 1990-cı illərdə jurnalistikamızda hansı meyillərin hökm sürdüyünü yaxşı xatırlayırıq. Biz o vaxt çox üzücü bir mənzərə ilə üzləşmişdik. Yəni bəzi mətbuat orqanlarında təhqir, böhtan və şər amilləri əsas rol oynayırdı. Bu gün jurnalistlərin məsuliyyəti hesab edirəm ki, yüksək səviyyədədir, bu gün Azərbaycan jurnalistikasının mütləq əksəriyyəti sağlam jurnalistikadır".

**Ölkə başçısı mətbuatın cəmiyyətdəki rolunu yüksək qiymətləndirib və çox mühüm mesajlar verib. Prezident deyib:** "Jurnalistlər fəaliyyətləri ilə inkişafa öz töhfələrini verirlər. Cəmiyyəti incidən, narahat edən problemləri üzə çıxarırlar. Sizə deyə bilərəm ki, mən bəzi hallarda hansısa xoşagəlməz hadisə ilə bağlı məlumatı mətbuatdan əldə edirəm. Düzdür, mənə müxtəlif mənbələrdən hər gün müxtəlif məlumatlar gəlir. Yəni əlbəttə ki, mənə həm xarici, həm daxili siyasətlə, həm də təhlükəsizlik məsələləri ilə bağlı əsas məsələlər məruzə edilir. İnsanları narahat edən məlumatlar haqqında mən mətbuatdan da xəbər tuturam, dərhal reaksiya verirəm. Dövlət məmurları, yaxud digər şəxslər, qüsurlara yol verən şəxslər bilirlər ki, Azərbaycanda söz və mətbuat azadlığı imkan verməyəcək ki, onlar işdə hansısa qüsurlar buraxsınlar. Ona görə jurnalistlər bəlkə də özləri də bilmədən mənim köməkçilərimdir. Buna görə də mən sizə minnətdaram. Əminəm ki, siz gələcəkdə də bütün cəmiyyəti narahat edən, incidən məsələlər haqqında yazacaqsınız, harada hansı ədalətsizlik var, qanunsuzluq var, dərhal operativ reaksiya verəcəksiniz, cəmiyyətin və dövlət orqanlarının diqqətini bu məsələlərə cəlb edəcəksiniz".

Dövlət başçısı medianın inkişafı üçün Azərbaycan dövlətinin səylərini əsirgəməyəcəyini, jurnalistlərin məişət problemlərinin daim diqqətdə saxlanılacağını da deyib.

**Prezident İlham Əliyev bildirib ki, jurnalistlər həqiqəti, obyektivliyi başlıca meyar götürməli, yüksək məsuliyyətli olmalı, xarici təsir altına düşməməlidirlər. Azərbaycanın dünyada nüfuzunun durmadan artdığını, multikulturalizmin mərkəzi sayıldığını deyən prezident bu sahədə də Azərbaycan mediasının töhfələrini xüsusi vurğulayıb:** "Azərbaycan jurnalistikası daha da vətənpərvər olmalı, xaricdən ölkəmizə təsir cəhdlərinin qarşısının alınmasında fəal iş görməlidir. Milli maraqlar hər şeydən üstün tutulmalı, Azərbaycanın informasiya məkanı xarici təsir cəhdlərindən qorunmalıdır".

**"Bu gün Azərbaycan cəmiyyəti rahat şəraitdə, təhlükəsizlik, sabitlik şəraitində yaşayır. İndiki zəmanədə bu, özlüyündə bir nailiyyətdir və biz ölkəmizi bütün mümkün olan risklərdən qoruyuruq"-deyə, prezident əlavə edib. Dövlət başçısının sözlərinə görə, ölkəmizin daxilində demək olar ki, risk mənbələri yoxdur:** "Xaricdən özümüzü qorumaq üçün kifayət qədər ciddi siyasət aparılır, həm ideoloji sahədə, həm sərhədlərimizin qorunmasında və ümumiyyətlə. Biz həmişə çalışırıq və hesab edirəm buna nail olmuşuq ki, Azərbaycanı mümkün risklərdən qoruyaq, Azərbaycan xalqı rahat, sülh şəraitində yaşasın".

**Dövlət başçısı qeyd edib ki, jurnalistlər üçün tikilən binalarda yaşayan və bundan sonra yaşayacaq jurnalistlər müxtəlif siyasi spektrə aiddir və burada da heç bir ayrı-seçkiliyə yol verilməyib:** "Müxtəlif siyasi baxışları, müxtəlif partiyaların üzvləri olan insanlar burada bir yerdə bir ailə kimi yaşayacaqlar. Əslində Azərbaycan cəmiyyəti də bu istiqamətdə inkişaf edir. Azərbaycanda milli həmrəylik var. Azərbaycan cəmiyyəti vahid amal ətrafında birləşib. Bizdə olan inkişaf, sabitlik, əmin-amanlıq, əlbəttə, bu gün siz də yaxşı bilirsiniz ki, dünyanın bir çox yerlərində öyrənilir, bəzən təəccüblə qarşılanır və bunun da çox sadə səbəbi var. Çünki Azərbaycanda çox gözəl, demokratik şərait var. Azərbaycanda iqtisadi inkişaf var. Azərbaycan müstəqil siyasət apararaq həm bölgədə, həm dünyada öz mövqelərini möhkəmləndirib. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının və Azərbaycan dövlətinin maraqları dayanır. Hesab edirəm ki, bu iki əsas amil Azərbaycanda artıq çox güclü dayaqlara malikdir. Həm sosial, həm iqtisadi, həm də xarici siyasətlə bağlı atdığımız addımlar bizə böyük uğur gətirib və dünyada Azərbaycana çox böyük rəğbət var".

**Prezident üçüncü bina ilə bağlı işlərin tez başa çatdırılmasını tapşırıb:** "Mənim arzum və tikinti şirkətindən xahişim ondan ibarətdir ki, 3-cü binanı daha tez tiksinlər. İlk binanı 4 ilə tikib-başa çatdırdıq. Amma maksimum 3 ilə bu binanın tikintisi başa çatdırılmalıdır. Nəzərinizə çatdırıram ki, heç bir maliyyə problemi olmayacaq".

**"Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin informasiya proqramları studiyasının direktoru Mehriban Məmmədova çıxış edərək mətbuat nümayəndələrinə göstərilən yüksək qayğıya görə prezidentə təşəkkür etdilər.**

"Cənab prezident, sizin jurnalistlərimizə bəxş etdiyiniz bugünkü sevinci heç bir sözlə ifadə etmək olmaz. Azərbaycan jurnalistlərinə belə möhtəşəm sevinc hissi yaşatdığınıza görə sizə dərin minnətdarlığımızı bildiririk.

Siz jurnalistlərinizin əbədi dostusunuz". Bu fikirləri isə Mətbuat Şurasının (MŞ) sədri Əflatun Amaşov söylədi. Ə.Amaşov daha sonra bildirdi ki, kütləvi informasiya vasitələri (KİV) arasında keçirilmiş sorğunun nəticələrinə əsasən, Azərbaycanda söz və mətbuat azadlığının təmin edilməsi, KİV-in müstəqilliyinin dəstəklənməsi, maddi - texniki bazanın möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi və mənzil-məişət şəraitinin yaxşılaşdırılması sahəsində yürütdüyü davamlı siyasətə görə Azərbaycan prezidenti İlham Əliyev "Jurnalistlərin dostu" mükafatına layiq görülüb.

Bundan sonra Ə. Amaşov daha sonra mükafatı dövlət başçısına təqdim edib.

**Xatırladaq ki, dünənki tədbirdə mənzil alan mətbuat nümayəndələri arasında "Yeni Müsavat"ın redaktoru Zahid Səfəroğlu, musavat.com saytının redaktoru Xalid Kazımlı, qəzetin əməkdaşları Aygün Muradxanlı və Elşad Paşasoy da var.**

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 152 (6766) 21 iyul 2017

# Elçibəyin Qurban Məmmədovu baş prokuror təyin etməməsinin sirri

**Müsavat Partiyasının sabiq başqanı, Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbər jurnalist Əvəz Zeynallının "Azadlıq salnaməsi" rubrikasının qonağı olub. İsa Qəmbər 24 il əvvəlki hadisələr barədə suallara cavabında Xalq Cəbhəsi hakimiyyətində baş prokuror təyinatı ilə bağlı da danışıb. İsa Qəmbər bildirib ki, o, İxtiyar Şirinin hüquqi məsələlər üzrə dövlət müşaviri təyin edilməsinin tərəfdarı olub, baş prokuror yox:**

## Sərdar Cəlaloğlu: "Elçibəy səfir vəzifəsi təklif etdi, dedim ki, bizi ölkədən uzaqlaşdırmaq istəyirsiz"

"Hesab eləmişəm ki, İxtiyar Şirin dövlət müşaviri kimi öz vəzifəsinin öhdəsindən yüksək səviyyədə gəlir və bu, kifayət edirdi. Mən baş prokuror vəzifəsində daha prinsipial, daha sərt bir adamın olmasını məqsədəuyğun saymışam. Çünki prokuror əlində heç bir qüvvə olmadan dövlətin gücünü özündə təcəssüm etdirən bir şəxs olmalıdır. Baş prokuror vəzifəsinə konkret heç kimi məsləhət görməmişəm. Əbülfəz bəylə söhbətimiz olanda da Əbülfəz bəy "kimi təklif edirsən, təklif ver, təyin edək" deyəndə, demişəm, mənim namizədim yoxdur, mən bilmirəm, siz prezident kimi baxın hüquqşünaslara, birini seçib təyin edin. Hakimiyyətə gəldiyimiz ilk günlərdə Qurban Məmmədovun baş prokuror təyin edilməsi ilə bağlı ideya var idi və o ideya gerçəkləşmədi. Əbülfəz Elçibəy məsləhət görmədi".

**Qurban Məmmədovun qardaşı, ADP sədri Sərdar Cəlaloğlu "Yeni Müsavat"a açıqlamasında bildirib ki, İsa Qəmbər doğru deyir, Qurban Məmmədovun baş prokuror təyinatına Əbülfəz Elçibəy razı olmamışdı:** "İsa Qəmbərlə Qurban Məmmədov həddən artıq yaxın idilər. İsa Qəmbər və Pənah Hüseyn Qurbanın da, mənim də hakimiyyətdə yüksək vəzifədə təmsilçiliyimizi istəyirdilər və tələb edirdilər. İsa bəylə həm dostluq əlaqələrimiz var idi, həm də bizim xidmətlərimizi düzgün qiymətləndirirdi, potensialımızdan xəbərdar idi. Amma hakimiyyət təkcə İsa Qəmbərdən ibarət olmadığı, orada müxtəlif qüvvələr hakimiyyətdaxili güc formalaşdırdığı üçün İsa bəyin bütün istəkləri asanlıqla həyata keçmirdi.

Təkcə Qurban Məmmədovu yox, mənim özümə də dəfələrlə hakimiyyətdə müxtəlif vəzifələrdə təmsilçilik təklif olunmuşdu. Hələ AXC hakimiyyətə gəlməyə çox az qalmış İsa Qəmbər Naxçıvana gəlmişdi. İsa Qəmbər formalaşacaq hakimiyyət komandasında mənə yüksək vəzifələr-nazir və prezidentin müşaviri postunu təklif eləmişdi. Mən o dövrdə xəstələnmişdim İsa Qəmbər Sülhəddin Əkbərlə birlikdə bizim evə gəlmişdilər. Mən o zaman İsa bəyə öz fikirlərimi bildirdim, hansısa vəzifəni istəmədiyimi dedim. Bir müddət sonra İsa Qəmbər Milli Məclisin sədri oldu və ölkə prezidentinin səlahiyyətlərini icra eləməyə başladı. Bu zaman İsa Qəmbər məni Bakıya dəvət elədi. Mən gəldim İsa Qəmbərlə prezidentin kabinetində görüşdüm. Yenə də mənə eyni təkliflərini elədi və mən də eyni cavab verdim. Mövqeyimi belə ifadə


Əbülfəz Elçibəy


Qurban Məmmədov

etdim ki, Xalq Cəbhəsinin nə eləmək istədiyi hələ mənə aydın deyil. Vəzifədən imtina etdikdən sonra İsa bəy mənə təklif etdi ki, Qurban bəylə birlikdə bizim üçün ekspert rolu oynayın, müxtəlif sahələr üzrə hakimiyyətə təkliflər təqdim edin. Sonra isə Əbülfəz Elçibəy Qurban Məmmədova və mənə təklif elədi ki, prezident inspeksiyası vəzifəsini qeyri-rəsmi şəkildə həyata keçirək. Biz də Qurban bəylə rayonları gəzib görüşlər keçirirdik və ayrı-ayrı sahələr üzrə təklif və fikirlərimizi yazıb təqdim edirdik. Biz əslində hakimiyyətə konstruktiv müxalifətdəydik, onun daha da möhkəmlənməsi üçün ona kömək etməyə çalışırdıq.

Sonra prezident Əbülfəz Elçibəy məni yanına çağırdı. Dedi ki, Rusiya, İran, ABŞ və Türkiyəyə səfirlər təyin olunmayıb, bu dövlətlərdən hansına istəyirsən səni səfir təyin edim. Mən də dedim ki, istəyirsən bizim ölkədən xaricə çıxarasınız, lakin bizim sizə müxalifət kimi daha çox köməyimiz dəyə bilər. Qurban Məmmədova isə baş prokurorun müavini vəzifəsini təklif elədilər. İsa bəy düz deyir, Qurban bəyin baş prokuror təyin olunması məsələsi müzakirə ediləndə Elçibəy qarşı çıxıb. Arqumenti isə bu olub ki, Qurban Məmmədov idarəolunmayan xaraktere malik adamdır, kim qarantiya verə bilər ki, sabah bizim komandanın üzvlərinə qarşı da cinayət işi açmayacaq. Çünki Əbülfəz bəy bilirdi ki, komandasında düz olmayan adamlar da var və nöqsanlı fəaliyyətləri mövcuddur".

**S.Cəlaloğlu xatırlatdı ki, Qurban Məmmədov Xalq Cəbhəsinin sədri Əbülfəz Elçibəyin təşkilati məsələlər üzrə müavini idi və Elçibəy onun iş prinsipinə bələd idi. Qurban Məmmədov baş prokurorun müavini vəzifəsini qəbul etməyib və Xalq Cəbhəsindən istefa verib. Bir müddət sonra yenidən ona və Qurban Məmmədova başqa vəzifələr təklif edilib:** "Qurban bəy razı olmadı. Mən xarici işlər nazirinin təşkilati işlər üzrə müavini vəzifəsində işləməyə razılaşdım. Məni xarici işlər naziri Tofiq Qasımovla Prezident Aparatında tanış elədilər və oradan birlikdə nazirliyə getdik. Tofiq Qasımovun danışıqlarından belə başa düşdüm ki, bu hakimiyyətdə hər bir nazir, hər bir icra başçısı özünü prezident sayır. Tofiq Qasımov prezidentin səfir təyinatlarını qəbul etmirdi. Nazirlikdə yerliçilik söhbətləri ortaya atılmışdı. Beləliklə, gördüm ki, Tofiq Qasımov yerində olmayan bir adamdır, bu cür düşüncəyə malik adamla işləmək mümkün deyil. Ona görə də gəldim Prezident Aparatına və vəzifədən imtina etdim. Bundan sonra həmin vəzifəyə Elçibəyin xalası oğlunu təyin elədilər. Bununla da bizim Elçibəy iqtidarı ilə əməkdaşlığımız başa çatdı".

❑ **Etibar SEYİDAĞA**

# Bakıda Qüds müzakirələri: Azərbaycan Yaxın Şərqdə aktiv diplomatiya aparır

## Ölkəmizin vasitəçiliyi İsrail və Fələstin tərəfini qane edir

**İyulun 20-də Bakıda iki gün davam edəcək "Qüds və beynəlxalq ictimaiyyət: siyasi və iqtisadi dəstəyin göstərilməsi" adlı konfrans başlayıb. Qüds problemi ilə bağlı sayca 4-cü beynəlxalq konfrans Azərbaycan XİN, BMT və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) təşkilatçılığı ilə baş tutub.**

Tədbirdə çıxış edən XİN-in xüsusi tapşırıqlar üzrə elçisi Şahin Abdullayev deyib ki, Yaxın Şərqdə sülhün bərpa olunması üçün beynəlxalq ictimaiyyət Şərqi Qüds məsələsinə diqqəti artırmalıdır. "Şərqi Qüdsün statusu və Haram-əl-Şərif (Məbəd dağı) məsələlərinin həlli çox vacibdir. Azərbaycan həm İsraillə, həm də Fələstinlə yaxşı münasibətlər qurub. İsraillə yaxşı münasibətlərimiz bizə Fələstin dövlətini dəstəkləməkdə mane olmur, çünki onun ərazisi işğal edilib. Azərbaycan bu münaqişənin həllinə hər cür kömək etməyə çalışır və həmişə bu məsələ ilə bağlı mövqeyini açıq bəyan edir", - deyə Ş.Abdullayev vurğulayıb.

BMT baş katibinin siyasi məsələlər üzrə köməkçisi Miroslav Yença çıxışında qurumun münaqişənin həlli üçün səylərini davam etdirəcəyini bildirib. Qeyd edib ki, yalnız birgə fəaliyyət göstərərək mövcud münaqişənin həlli üçün irəliyə doğru addım atmaq olar.

İƏT baş katibinin köməkçisi Samir Bəkr təmsil etdiyi təşkilatın da Qüds və fələstinlilərin müdafiəsi üçün səylərini davam etdirəcəyini deyib.

Fələstin dövlətinin BMT-də nümayəndəsi Riyad Mənsur Məbəd dağına daimi girişi dəstəkləyən sənədin qəbul edilməsinin vacibliyini vurğulayıb. R.Mənsur dindarların yolunda maneələrin tamamilə aradan qaldırılmasının vacibliyini, kommünikenin konfrans iştirakçıları tərəfindən dəstəklənəcəyinə ümidvar olduğunu bildirib. O, Azərbaycanı həm Fələstinin, həm İsrailin dostu adlandırıb və ölkəmizin bu məsələdə yeni ideyalar verməklə hər iki tərəfə münasibətlərin



bərpasında kömək edə biləcəyini deyib.

Qeyd edək ki, Qüds şəhəri 3 səmavi dinin - İslam, Xristianlıq və İudaizmin müqəddəs şəhəridir. Çox qədim tarixi olan bu şəhərdə yəhudiliyin əsas müqəddəs məbədi "Süleyman Məbədi" (Beyt əl-Makdis) yerləşir. Bundan başqa, xristianlığın ilk illəri ilə bağlı yerlər, o cümlədən müsəlmanların ilk qibləsi də məhz Qüds şəhəri və orada yerləşən Beyt əl-Müqəddəsdir. Həm müsəlmanlar, həm yəhudilər, həm də xristianlar bu şəhərdə yaşayır, onu tarixi və dini bir mərkəz olaraq görür. Bu səbəbdən də İsrail dövlətinin yaradılması məsələsi gündəmə gələrkən həm yəhudilər, həm də fələstinlilər (müsəlmanlar) Qüds şəhərinə iddia etdilər. 1947-ci il noyabrın 29-da BMT Fələstin ərazilərində ərəb və yəhudi (İsrail və Fələstin) dövlətlərinin yaradılması ilə bağlı qərar qəbul edir. Qərara görə, Qüds şəhəri beynəlxalq statuslu ərazi olmalı idi. Ancaq yəhudilər 1948-ci il mayın 15-də dövlət elan edir və fələstinlilər dövlət yarada bilmədi. 1967-ci il 6 günlük müharibə nəticəsində İsrail dövləti Qüdsü şərq hissəsi də daxil olmaqla, bütövlükdə işğal etdi.

Məsələ ondadır ki, Qüdsə iddia edən hər bir dini və etnik qrupun öz arqumenti və tələbinin kökünün bağlandığı tarixi-dini səbəblər var. Bu üçün də ötən 70 il ərzində Qüds və Fələstin məsələsi dünyanın ən dərin və mürəkkəb probleminə çevrilib. Son olaraq şəhərdə baş verən hücumlardan sonra ötən həftə İsrail polisi Qüdsdəki müsəlmanların 4 müqəddəs məscidindən biri olan Məscid əl-Əqsada Cümə namazına son 50 ildə ilk dəfə qadağa qoyub və bununla da gərginliyi daha da artırıb.

Azərbaycanın dünyanın ən mürəkkəb münaqişəsinə qatılması ideyası hələ bir neçə il əvvəldən irəli sürülüb. Məsələ ondadır ki, Azərbaycan bir müsəlman ölkəsi olaraq İslam dünyasının bir üzvüdür. Müsəlman dünyası içərisində bloklaşmalara qatılmayan, neytrallığını qoruyub saxlayan, eləcə də İslam Əməkdaşlıq Təşkilatı kimi ümumislam qurumlarında fəal iştirak etməsi səbəbindən müsəlman ölkələri ilə müsbət əlaqələrə malikdir, eyni zamanda zaman-zaman Fələstinə yardım edib, münaqişə ilə bağlı Fələstin xalqının mövqeyini açıq şəkildə dəstəkləyir.

Eyni zamanda Azərbaycanın İsrail dövləti ilə yaxın əlaqələri mövcuddur. Dünyada ən böyük kompakt yəhudi yaşayış məntəqələrindən biri Azərbaycandadır, yəhudilər tarix boyu yerli xalqlarla qaynayıb qarışıb, indi də ölkədə rahat şəkildə yaşayırlar. Bunun təsiri ilə Bakı və Təl-Əviv arasında yaxın dostluq münasibətləri mövcuddur, eləcə də dünyadakı yəhudi diasporu ilə geniş əlaqələr var.

Yeni Azərbaycan həm də İsrail, həm də Fələstin üçün yaxın olan, hər iki tərəflə danışmaq, sözünü çatdıra biləcək humanitar vasitəçidir. Əlbəttə, belə bir münaqişəni Azərbaycanın həll eləməsi mümkün deyil, lakin mütəxəssislərə görə, həm də İsrail, həm də Fələstin tərəfinin normal yanaşdığı, hətta arzuladığı vasitəçi hər iki tərəfə yaxın olan, humanitar, mədəni və kiçik çaplı digər mövzularda vasitəçilər lazımdır.

Hazırda bu statusda Azərbaycan var. Rəsmi Bakı bu vəziyyətdən istifadə edərək həm ərəb-İslam aləmində yerini möhkəmləndirmək, həm də regional məsələlərdə aktiv rol oynamaq üçün bu fürsətdən istifadə edir. Baxmayaraq ki, İsrail ənənəvi olaraq bu mövzularda konfransa qatılmayıb. Ancaq aydın məsələdir ki, Bakı Təl-Əvivin mövqeyini bilir və bu səbəbdən də prosesi rahat şəkildə aparır.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 152 (6766) 21 iyul 2017

# Bakıdakı məhkəmədən düşmənə göz dağı

**Azərbaycan dövləti özünün sərt üzünü və gücünü göstərdi. Qarabağa qanunsuz səfər eləmək azmış kimi, separatçı rejimi təbliğ edib Azərbaycanı aşağılayan yəhudi blogger Aleksandr Lapşinə cəza kəsildi. Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əlövsət Qasımovun sədrliyi ilə keçirilən prosesdə Lapşinə hökm oxundu. Məhkəmənin hökmünə əsasən, A. Lapşinə ittiham olunduğu Cinayət Məcəlləsinin 281.2-ci (dövlət əleyhinə yönələn açıq çağırışlar) maddəsi ilə bəraət verilib. Məhkəmə qeyd edib ki, bu maddə ilə verilən ittiham məhkəmə istintaqı zamanı sübuta yetirilməyib.**




# Lapşin işi: Azərbaycan elə bir dərs verdi ki...

## Qarabağa qanunsuz səfərlər edən yəhudi blogger layiqli cəzasını aldı - 3 il; Rusiya öz vətəndaşı olan qalmaqallı bloggerdən imtina elədi - Moskvadan Bakıya maraqlı jest; Lapşinin sonrakı taleyi necə olacaq, əfv ediləcək, yoxsa ekstradisiya?..

Lakin məhkəmə onu Azərbaycan Cinayət Məcəlləsinin 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddəsi ilə təqdirli bilərək 3 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edib. Prokuror ona 6 il 6 ay həbs cəzası istəmişdi.

Doğrudur, bu, hələ onun 3 il günə-gün Azərbaycan həbsxanasında yatacağı anlamına gəlmir. Çünki bundan sonrası qalır ölkə prezidentinin onu əfv edib-etməyəcəyi məsələsinə. Dövlət maraqları, strateji tərəfdaşımız İsrail və Rusiyanın xahişləri nəzərə alınarsa, yəhudi blogger öz cəzasını çəkmək üçün bu iki ölkədən birinə verilə də bilər, əfvlə azadlığa çıxa da.

Əsas odur ki, Azərbaycan dövləti olduqca həssas bir məsələdə, düşmənə qarşı Dağlıq Qarabağla bağlı aparılan təbliğat savaşında və sağdan-soldan (Rusiya, İsrail) edilən təzyiqlərə rəğmən, ortaya öz maraqlarını qorumaq üçün iradə qoya bildi, sifətini saxladı, Qarabağ məsələsində xeyrimizə işləyəcək yaxşı bir presedent, ilk yaratdı.

Sözsüz ki, buna görə heç kim, heç bir ölkə bizə irad tuta bilməz. Lakin bizdən ötrü A.Lapşinin məhkəmə istintaqına cəlb edilib cəza kəsilməsi də hədəf yox, əslində vasitə idi. Çünki önəmli olan - işğal altındakı ərazilərimizə bu kimi qanunsuz səfərləri durdurmaqdır. Dağlıq Qarabağın ölkəmizin ayrılmaz parçası olduğunu, Azərbaycanın öz bir qarış torpağını belə, Ermənistana heç vaxt güzəşt etməyəcəyini daim beynəlxalq birliyin, vasitəçi dövlətlərin diqqətinə çatdırmaqdır.

***

Xəbər verdiyimiz kimi, Rusiya, İsrail və Belarus vətəndaşı olan yəhudi blogger məhkəmədə səmimi etiraflar edib, səhvini boynuna alıb, Azərbaycana öz ərazi bütövlüyünü tezliklə təmin etməyi arzu edib. Adı "qara siyahı"da olan və separatçıların dostu sayılan odioz birisinə haqq-ədaləti etiraf etdirməyin özü də az iş deyil, Azərbaycan dövlətinin uğurudur.

Fəqət, bu, həbsxanamızın təzə qonağı kimi A.Lapşinin sındırılması və ya alçaldılması anlamını da vermir. Düz yola gəlib islah olmaq, səhvləri səmimi və publik şəkildə boynuna alıb peşmançılıq keçirmək sınmaq və ya sındırılmaq sayılmaz. Yəhudi bloggerin prosesdəki etiraflarını isə səmimi saymamağa əsas yoxdur.

**Məhkəmədə qaçqın-köçkünlərin, Xocalı soyqırımı şahidlərinin ifadələrini eşidəndən sonra onun vicdanı tərpənibsə, demək, içində heç də hər şey ölməyibmiş. İnsanlıq duyğuları tam korşalmayıbmış. Kimin, hansı əşirətin, terrorçu-başkəsənlərin maraqlarına qulluq etdiyinə o, yəqin ki, balaca Zəhranın faciəsindən sonra daha möhkəm yəqinlik hasil edib. Bunu onun məhkəmədəki son sözündən də görmək olardı.**

**Sitat:** "Özümü peşman hiss edirəm. Hiss edirəm ki, mən düşünmədən, bilmədən Azərbaycana və onun xalqına zərər vurmuşam. Ancaq günahım Azərbaycan qarşısında mənəvi müstəvidədir, hüquqi yox. Peşmanam ki, blogger kimi Qarabağa səfər edəndə Azərbaycana qarşı kəskin sözlər işlətmişəm. Heç zaman Azərbaycana nifrətim olmayıb. Öz hərəkətlərimlə azərbaycanlılara mənəvi əzab vermişəm - xüsusən də erməni qəsbkarlarından əziyyət çəkənlərə. Ümid edirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü tez bir zamanda bərpa edər. Qarabağ münaqişəsi tezliklə Azərbaycanın xeyrinə başa çatar".

Bu sözləri Lapşinin elə özü haqda çıxardığı qiyabi hökm-ittiham da adlandırmaq olar...

***

Yazı hazırlanarkən məlum oldu ki, Kremli Lapşinin Rusiyaya ekstradisiyası maraqlandırmır. "Rusiya, İsrail, Ukrayna vətəndaşı, Bakıda məhkəmə tərəfindən 3 il müddətinə azadlıqdan məhrum edilmiş blogger Aleksandr Lapşinin mümkün ekstradisiyası Kremlin mövzusu deyil". Bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.

"Xeyr, bu Kremlin mövzusu deyil", - deyə Rusiya rəhbərliyində bu mövzunun izlənilməsi və Lapşinin ekstradisiya edilib-edilməyəcəyi ilə bağlı suala cavab verərkən Peskov bildirib.

Xatırladaq ki, Lapşin Belarusdan ekstradisiya edilməzdən yüksək çinli Rusiya rəsmiləri *(xarici işlər naziri Sergey Lavrov, XİN sözçüsü Mariya Zaxarova, ombudsman Moskalkova)* az qala, Bakıya qarşı hədələyəci tonda onun azad onun sərbəst buraxılmasını tələb etmişdilər. Moskva indinin özündə belə, Bakıda narkotik ittihamı ilə 8 il həbs cəzası almış erməni əsilli Rusiya vətəndaşı Marat Ueldanovun ekstradisiyasına çalışır.

Amma indi məlum olur ki, üçlü vətəndaşlıq daşıyan yəhudi blogger daha Rusiya üçün maraq kəsb eləmir. Ola bilsin, Kreml Lapşin səhifəsini qapatmaqla son vaxtlar Bakı ilə heç də yaxşı olmayan münasibətlərə əlavə soyuqluq qatmaq istəmir. Hərçənd Lapşin işinə nöqtə qoyulduğunu demək də tez olar. Çünki məsələyə İsrailin yekun mövqeyi hələ bəlli deyil.

❑ **Siyasət şöbəsi**



# Lapşin Qarabağa qanunsuz səfərinin cəzasını aldı

## Politoloq: "Bundan sonra bloggerlərdən Dağlıq Qarabağa gedənlərin sayı azalacaq"

**İyulun 20-də Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycanın ərazi bütövlüyü əleyhinə çağırışlarda, sərhədi qanunsuz keçərək Dağlıq Qarabağa getməkdə ittiham olunan blogger Aleksandr Lapşinin cinayət işi üzrə növbəti məhkəmə istintaqı yekunlaşıb. Məhkəmə Lapşini Cinayət Məcəlləsinin 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddəsi ilə təqdirli bilərək 3 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edib.**

**Politoloq Mübariz Əhmədoğlu "Yeni Müsavat"a söyləyib ki, əsas məsələ Lapşinin cəzandırılmasıdır:**

"Fakt odur ki, Lapşin cəzalandı. O, çox inadkar şəkildə anti-Azərbaycan aksiyası reallaşdırırdı. İndi bu əməllərinin cəzasını aldı. Lapşin hesab edirdi ki, cəzalandırılmayacaq, lakin belə olmadı. Cəzanın müddətinin aşağı olmasına gəlincə isə bu, artıq başqa məsələdir. Müəyyən mənada burada siyasət var. Bəllidir ki, Lapşin o adam deyil ki, ona görə Azərbaycanla İsrailin, eləcə də Rusiyanın hətta ayrıca sahə üzrə komitələrinin, nazirlərinin arasında gərginlik yaşansın. Biz istəyimizə nail olduq. Sabah cəzasını çəkdikdən sonra gedib haradasa nə deməyindən asılı olmayaraq, Lapşin burada öz səhvini etiraf etdi. Düşünürəm ki, Lapşinə cəza ona görə yüngül verildi ki, yeri gəlsə onun ekstradisiyası ilə qısa müddət ərzində məşğul olmaq mümkün olsun. Yəni cəza ilinin az olmasının əsas səbəblərindən də biri budur. Dəqiqdir ki, Lapşin Rusiyaya ekstradisiya ediləcək. Çünki bu ölkənin vətəndaşıdır. Eləcə də İsrail və digər dövlətlərdən daha çox Rusiya bu məsələdə canfəşanlıq edirdi. Həm də o da nəzərə alınmalıdır ki, Belarus Lapşini Azərbaycana verən zaman İnterpolun sənədlərini əsas gətirməmişdi. Çünki İnterpol Lapşini axtarışa verdi və dərhal geri götürdü. Belarus Lapşini Azərbaycana verdiyi zaman MDB dövlətləri arasında cinayətkarların ekstradisiya olunması müqaviləsini əsas götürmüşdü".

**Politoloq bildirib ki, Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovun Lapşinin ekstradisiyasına əhəmiyyət verməməsi başadüşüləndir:**

"Çünki Kreml heç zaman Lapşin məsələsi ilə bağlı münasibət bildirməyib. Lapşin məsələsi ilə bağlı Rusiya adından danışan bu dövlətin xarici işlər naziri olub. Ona görə də bu, Kremlə aid məsələ deyil. Arzumuz odur ki, Rusiyanın vətəndaşlarını bu cür canfəşanlıqla müdafiə etməsi Dilqəm Əsgərova da şamil edilsin. Bir məqamı da qeyd edim ki, Lapşinə verilən cəza digərləri üçün də dərs olacaq. Rusiyanın blogger mühitində çox vacib adamlardan biri bu ay vəfat edən Anton Nosik idi. Onun ölümündən sonra aydın oldu ki, əslində bu adam alkoqol xəstəsi olub. Deməli, ermənilər bunu da hansısa adla aldadaraq, Dağlıq Qarabağa gətiriblər. Eyni zamanda məhkəmə prosesləri ərəfəsində aydın oldu ki, Lapşinin də müəyyən maliyyə problemləri olub və dövlət qanunlarını pozmaqla pul qazanırmış. Ermənilər də məhz bundan istifadə ediblər. Həm Lapşin hadisəsi, həm də Nosikin ölümündən sonra bəlli olanlar ermənilərin kimlərlə işlədiyini ortaya qoydu. Ona görə də Lapşinə verilən cəza hər kəsə dərs oldu. Düşünürəm ki, bundan sonra boggerlərdən Dağlıq Qarabağa gedənlərin sayı da azalacaq. Gedənlər də erməni təlisinə uyub, kəskin anti-Azərbaycan münasibəti bildirməyəcəklər".

**Məsələnin hüquqi tərəfləri barəsində "Yeni Müsavat"a danışan ekspert Fərhad Mehdiyev isə bildirib ki, Lapşinin ekstradisiyası indi istənilsə belə, o, hələ bir ilə yaxın burada qalacaq:** "Bu, iki ölkə arasındakı ekstradisiya haqqında müqavilə ilə tənzimlənir. Rusiya ilə bizim aramızda da belə bir müqavilə mövcuddur. Rusiya ilə bizim aramızda olan müqaviləyə əsasən, sadəcə olaraq, məhkəmə qərarının qətiləşdirilməsi lazımdır. Yəni Azərbaycanda həbsxanada qalması nəzərdə tutulmur. Bu, məncə, birinci instansiya məhkəməsinin qərarıdır. İndi iş apelyasiyaya gedəcək və orada da kassasiya məhkəməsinin qərarları gözləniləcək. Onun ekstradisiyası Ali Məhkəmənin qərarına qədər gecikdiriləcək. Bu proseslər isə 1 ilə yaxın uzana bilər".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 152 (6766) 21 iyul 2017

**Dini Komitənin sədri Mübariz Qurbanlı ilə müsahibəni uzun müddətdir planlaşdırsaq da, söhbət alınmırdı. Yəqin ki, iyulun 18-də Badamdarda keçirilən "İslam Həmrəyliyi və Media" tədbiri olmasaydı, bu müsahibə də baş tutmayacaqdı. Məhz baş redaktorumuzun o tədbirdə iştirak etməsi sayəsində "tilsim sındı" və DQİDK sədri qəzetimizə müsahibə verməyə razılaşdı.**



# "Heç bir ölkəyə məxsus İslam yoxdur"

## Mübariz Qurbanlı: "Ehsan məsələsi qadağa deyildi, tövsiyə idi"



### "Əsas məqsədimiz dini maarifçilik işini yüksək səviyyəyə qaldırmaqdır"

***- Bir neçə gündən sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri təyin olunmağınızın 3 ili tamam olacaq. 3 ildir ölkədə dini sahəyə rəhbərlik edirsiniz. Bu müddətdə hansı əsas hədəfləri qarşıya qoyub nail ola bilmisiniz? Yeri gəlmişkən, komitənin "yol xəritəsi" - strateji planı da var. Orada qoyulan vəzifə və tapşırıqlara nail olmaq mümkün oldu?***

- Razılaşarsınız ki, hər bir qurumun fəaliyyətinə ondan yuxarı qurum qiymət verir. Buna ictimai rəy, mətbuat, ekspertlər, bir də yuxarı qurum qiymət verə bilər. Biz bunu söyləsək, məntiqli olmaz, amma mənim komitəyə təyinatımdan sonra ölkə prezidentinin dövlət-din münasibətləri ilə əlaqədar müəyyən etdiyi strateji xəttin həyata keçirilməsi istiqamətində kollektivi səfərbər edərək işimizi aparmışıq. Bizim kollektiv əsasən gənclərdən ibarətdir. Eyni zamanda əksəriyyəti ilahiyyat üzrə mütəxəssislərdir. Komitənin son illərdə ştat vahidi və fəaliyyəti ilə əlaqədar sərəncamlar verilib. Mərkəzi Aparatda şöbələrin sayı 9-a, bölgələrdə isə 15-ə çatdırılıb. Bu gün respublikanın demək olar ki, hər rayonunda DQİDK-nın bir nəfər olmaqla işçiləri vardır. Yeni işçilərin qəbulu, ştatın artırılması fəaliyyətimizin daha da dinamikləşməsi, səmərəliliyinə müsbət təsir göstərib.

Komitədə əsas vəzifələrimizi müəyyən etmişik. Burada konsepsiyanın detalları haqqında danışmaq istəmirəm. Ancaq qısa şəkildə qeyd edəcəm. Komitənin indiki vaxtda əsas vəzifəsi iki istiqamətdədir. Birincisi, hansı hədəflərə nail olmaq və ikincisi, təhdidləri aradan qaldırmaq. Biz İslam dünyasının bir parçasıyıq. Həm İslam dini, həm də digər dinlərdə baş verən hadisələr bu və ya digər formada bizə də öz təsirini göstərə bilər, bu da təbiidir. Biz açıq ölkəyik, qapalı cəmiyyət deyilik.

Qarşımıza qoyduğumuz məqsədlərdən biri də din sahəsində maarifçiliyi yüksək səviyyəyə qaldırmaqdır. Radikal dini qruplara qarşı maarifçilik fəaliyyəti odur ki, biz İslamı insanlara olduğu kimi çatdırmalıyıq. Və bu zaman yerli dini icmalarla, xüsusilə Qafqaz Müsəlmanları İdarəsi ilə birgə hərəkət edirik, bizim QMİ ilə birgə fəaliyyət proqramımız var.

Radikal dini qruplara qarşı mübarizənin ikinci istiqaməti də həmin qrupların ölkədə özünə iqtisadi baza yaratmasına imkan verməmək, kənardan gələn maliyyənin qarşısını almaqdır. Üçüncü istiqamət, qanunvericilikdə mövcud olan əsaslara söykənməklə qanun pozuntusu hallarını aşkarlamaq və bunların aradan qaldırılması üçün hüquq-mühafizə orqanları ilə əməkdaşlıq etmək, eləcə də Azərbaycanda yayılması məqsədəuyğun hesab edilməyən dini ədəbiyyat və ləvazimatların ölkəyə gətirilməsinin qarşısını almaqdır.

2014-cü ildə cənab prezident dini maarifləndirməyə dəstək məqsədilə Dini Komitəyə vəsait ayırıb və bu sərəncama uyğun olaraq bu günə qədər dini icmaların 221 layihəsi maliyyələşdirilib. 2016-cı il "Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilib. Bizim həyata keçirdiyimiz layihələr bu böyük təbliğat kampaniyasına töhfə verməkdədir. Bu layihələrdə minlərlə Azərbaycan vətəndaşı iştirak edir.

Apardığımız işlər nəticəsində bir sıra məscidlərdə qeyri-qanuni fəaliyyət göstərən şəxslərin kənarlaşdırılmasına, qanuni şəkildə din xadimi təyinatına nail olmuşuq. Görüləcək işlərdən biri də ölkədəki məscidlərin hamısının din xadimi ilə təmin olunmasına nail olmaqdır. Ölkədə 2246 məscid var, bunlardan 900-ə yaxını kiçik məhəllə məscididir. Bunlara rəsmi din xadimi təyinatı başa çatmayıb, bunun da obyektiv və subyektiv səbəbləri var. Obyektiv səbəbi kifayət qədər kadrın olmaması, subyektiv səbəbi isə qanunda məsciddə təyinat üçün mütləq icma qurulması müddəasının olmasıdır. Kiçik məscidlərdə bu mümkün olmur. Çünki qanunla icma olması üçün 50 vətəndaş olmalıdır, amma kiçik məhəllələrdə çox zaman bu qədər insanı bir araya toplamaq mümkün deyil. Ona görə də ümumi razılaşma ondan ibarətdir ki, bu cür məscidlərə dini ayinlərin icrasını həyata keçirən şəxslər təyin olunsun. Biz nəzərdə tutmuşuq ki, Azərbaycanda bütün məscidlərdə rəsmi təyinat baş tutsun. Çünki qanun bunu tələb edir.

***- Yuxarıda qeyd etdiniz ki, komitə maarifçilik fəaliyyəti aparır, həqiqi İslam dəyərlərini təbliğ edir. Həqiqi İslam dəyərləri dedikdə burda konkret olaraq hansısa məzhəb və xətt nəzərdə tutulur? Ümumiyyətlə, İslamı olduğu kimi çatdırmaq nə anlama gəlir? Məzhəblərüstü bir təbliğat?***

- Azərbaycan İslam ölkəsidir, əhalinin 96 faizi müsəlmandır. Bu gün İslam Əməkdaşlıq Təşkilatında 57 müsəlman ölkəsi birləşir. Eləcə də bu gün 160-dan artıq ölkədə müsəlman icması mövcuddur. Amma 57 ölkədən heç də hamısında əhalinin mütləq əksəriyyəti müsəlman deyil. Təqribən 46-47 ölkədə böyük əksəriyyət müsəlmandır. Bəzilərində yarı-yarıyadır, bəzilərində müsəlmanlar çoxluq olmasa da, müsəlman ölkəsi statusundadır. Unutmaq lazım deyil ki, fərqli görüşlər olsa da, İslam dini vahiddir. Quran-Kərimi İndoneziyadakı və Misirdəki müsəlman eyni cür qəbul edir və oxuyur. Amma bu 57 müsəlman ölkənin hər birinin keçdiyi tarixi yol var. Azərbaycan xalqının keçdiyi tarixi yola bir baxaq: Tanrıçılıq, Zərdüştlük, Xristianlıq və nəhayət İslam. Söhbət məzhəbdən deyil, vahid İslam dinindən gedir.

Məsələn, Əfqanıstan və yaxud Malayziya, Sudanı götürək. Hər birisinin İslama qədər və ondan sonra uzun bir tarixi yolu olub. Ancaq bütün müsəlman ölkələrini birləşdirən Qurani-Kərim var. İslam bütövdür, heç bir ölkəyə məxsus İslam yoxdur. Azərbaycan İslamı, Özbəkistan İslamı və ya başqa bir ölkə adı ilə din yoxdur.

***- Ölkə adı ilə olmasa da, hər bir ölkənin yerli milli adət-ənənələri dinə də təsir edib, o ölkəyə xas bir dini ənənələr yaranıb.***

- Amma bir ölkə adı ilə İslam dini deyimi yoxdur. Heç xristianlıqda da yoxdur. İspan xristianlığı və ya Almaniya xristianlığı deyə bir şey yoxdur, din vahiddir. Ancaq din adət-ənənələrə hopur. Və tarixən millətin dini və dini qayda-qanunları adət-ənənələrinə sirayət edir. Ancaq hər bir dövlətin dinə yanaşması özünəməxsus olur. İspaniya və Böyük Britaniyanın dövlət-din münasibətləri eyni deyil. Eləcə də Azərbaycanda. Bizim konstitusiyamızda müsəlman ölkəsi olmağımız yazılmayıb. Bizim dini mənsubiyyətimiz konstitusiyamızda əksini tapmayıb. Biz dünyəvi dövlətik, dövlətin dini mənsubiyyəti yoxdur. Ancaq onlarla ölkə var ki, onların konstitusiyalarında nəinki ölkənin dini, hətta məzhəbi də qeyd olunub. 28 müsəlman ölkəsinin konstitusiyasında dini mənsubiyyət təsbit olunub. Ancaq biz dünyəvi dövlətik. Lakin bu o demək deyil ki, biz dövlət siyasətində İslami dəyərləri nəzərə almırıq. Vətəndaşın dini var və dövlət də dini himayə edir və bu zaman fərq qoymur. Ona görə də dövlət-din modelini soruşanda, mən deyirəm ki, bu, dövlətin dinlə əlaqələri ilə bağlı müəyyən etdiyi sistemdir. Bizdə din dövlətdən ayrıdır, ancaq dindar, vətəndaş dövlətdən ayrı deyil. Biz din dövlətdən ayrıdır, ona görə deyirik ki, din dövlətin işlərinə müdaxilə etmir.

***- Ancaq dövlət dinə müdaxilə edir...***

- Dövlət dini ayinlərin icrasına müdaxilə etmir. Dövlət bizə demir ki, sən namazı necə qıl, orucu necə və neçə gün tut.

***- Amma dövlətin dini maarifçiliklə məşğul olması bir mənada müdaxilə deyilmi?***

- Maarifçilik ayrıdır. Maarifçilik ona görədir ki, dövlət din adı altında ekstremist və radikal qrupların dindən saparaq dövlətin əsaslarına qarşı yönəlməsinin qarşısını alsın.

***- Bu bir növ Con Lokkun irəli sürdüyü layiqlik nəzəriyyəsi deyilmi? Dövlət dinə bəlli sərhədlər müəyyən edir, ondan kənara çıxanları isə qanunlarla cəzalandırır...***

- Tarixə qayıdıb müxtəlif filosoflardan, Hegeldən, Feyrbaxdan, Marksdan və başqalarından misallar çəkə bilərəm. Dinə yanaşmada modellər müxtəlifdir. Ulu Öndər Heydər Əliyev digər sahələrdə olduğu kimi, dövlət-din münasibətlərində də Azərbaycanın hansı konsepsiyaya söykənməsini müəyyən edib. Bu, konstitusiyamızda öz əksini tapıb. Azərbaycan Konstitusiyası 4 ana prinsip bəyan edib. Azərbaycan hüquqi, demokratik, dünyəvi və unitar dövlətdir. Dünyəvi dövlət o deməkdir ki, din dövlətin işinə qarışmır, dövlət də dini ayinlərə, dinə aid olan işlərə müdaxilə etmir. Dövlət dini himayə edə bilər və edir də. Məscidlər, kilsələr, sinaqoqlar tikə bilər və tikir. Azərbaycan müstəqillik qazananda 17 məscid vardı, ancaq indi sayları 2246-ya çatıb. "Heydər məscidi" kimi Cənubi Qafqazın ən böyük məscidi Bakı şəhərindədir. Eyni zamanda onlarla məscid tikilib və ya təmir, yaxud yenidən bərpa olunub. Bu siyahını uzatmaq olar.

Ancaq mənim demək istədiyim odur ki, Azərbaycanda dövlət-din modelinin özünəməxsus xüsusiyyəti var. İslam bütövdür. Sadəcə dini idarəçilik ölkələrə görə dəyişir. Bunları deməkdə məqsədim odur ki, Azərbaycanda biz İslamın nəsildən nəsilə ötürülən ənənəvi dəyərlərini, dövlətin dinlə bağlı formalaşmış siyasətini yaşadaq və gələcək nəsillərə ötürək.

***- Yəni ənənəvi İslamın yaşadılmasını nəzərdə tutursunuz?***

- İslam bütövdür, sadəcə, bizdə İslamla bağlı formalaşmış ənənələri olduğu kimi yaşatmalıyıq. Siz bilirsiniz ki, ölkələr məhsulla yanaşı, ideologiyalar da ixrac edir. Öz ideologiyasını ixrac etmək üçün ölkələr böyük vəsaitlər xərcləyir. Bir sıra ölkələr öz həyat tərzini, bəziləri dilini, mədəniyyətini yaymağa çalışır. Ona görə də biz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi qoruduğumuz kimi, dövlət-din münasibətləri ilə bağlı tarixən formalaşmış modelimizi də yaşadıb qorumalıyıq ki, kimlərsə kənardan başqa ideya gətirib burda yaymasın. Əgər xarici ölkələrdəki dəyərləri gətirib burda yaysalar biz tədricən öz kökümüzdən uzaqlaşmış olacağıq. Bu, çox ciddi və həssas məsələdir. Bu məsələdə bizim strateji xəttimiz dəqiqdir və bunu həyata keçirmək üçün bütün qurumlar birgə çalışır.

***- Siz təyin olunduqdan bir ay sonra yas mərasimlərində yemək süfrələri qadağan olundu. Ancaq ötən 3 ildən sonra baxdıqda bu qadağa işləmədi. Yəni bir sıra bölgələrdə ehsanlar yığışdırılsa da, əksər yerlərdə, o cümlədən Bakıda hələ də davam edir.***

- Əvvəla, burada qadağa sözünün işlənməsi ilə razı deyilәm. Bu, qadağa deyildi, tövsiyə idi.

***- Ancaq fakt odur ki, ilk vaxtlar bölgələrdə polis, bələdiyyə işçiləri gedib ehsan süfrələrini yığışdırırdılar...***

*(davamı növbəti sayımızda)*

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Hafiz Hacıyev müxalifət liderləri üçün ev istədi-reaksiyalar

**Jurnalistlər üçün tikilən ikinci binanın açılışının olması və media nümayəndələrinin evlə təmin edilməsi ictimaiyyətin gündəminə çevrilib. Ev alan jurnalistlər sosial şəbəkələrdə prezidentə təşəkkürlərini bildirib, dövlət tərəfindən atılan bu addımı müsbət qarşıladılar.**

## Müxalifət nümayəndələri isə hesab edir ki, hökumət mənzilə ehtiyacı olan vətəndaşları evlə təmin etməlidir

Jurnalistlərin bu kimi müzakirələrinə **Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev** də qoşulub və o da özü üçün ev istəyib. Belə ki, H. Hacıyev moderator.az saytına açıqlamasında bildirib ki, belə bir təşəbbüs partiya rəhbərləri üçün də olmalıdır: "Mən hazırda kirayələrdə qalıram. Mən dövlətçilik, qardaşım İlham Əliyevin yoldunda hər şeyimi qurban vermiş adamam. Ev nədir ki, bunun yanında? Amma kirayələrdə qalmaq da yaxşı hal deyil, mən də istəyirəm ki, nəvələrimin yanında başı uca olum. Sözün doğrusu, evlə bağlı bir neçə şəxsə ağız da açmışam, amma nəticəsi olmayıb. Mübarizə adamları olan Rəsulzadə və Elçibəyin də evləri olmayıb, biz də elə insanlardanıq. Məhrumiyyətlər içərisində yaşayırıq, bir tikə çörək tapanda yeyirik, tapmayanda sakit durub dövlətçiliyimiz üçün xidmətimizi davam etdiririk. Amma rüşvətxor, korrupsioner məmurlar ayda 1 villa almasalar dövlətçiliyə qarşı bütün təxribatlara əl atırlar. Çox təəssüf ki, ölkədə mənim kimi şəxslərə qiymət verilmir hələ də. Amma heç eybi olmaz, heç bir haqsızlıq məni tutduğum yoldan döndərməyəcək" deyə, H. Hacıyev bildirib.



Hafiz Hacıyevin bu cür təklifinə müxalifət nümayəndələri də öz fikirlərini bildiriblər.

**AG Partiya sədri Tural Abbaslı "Yeni Müsavat"a açıqlamasında bu təklifi ironiya hesab edib:**

"Ev verilməsi məsələsi son zamanlar jurnalistlər üçün bina tikildiyi üçün daha da aktuallaşıb. Bu məsələ cəmiyyətdə birmənalı qarşılanmır. Təbii ki, həmin evi, hədiyyəni aldıqdan sonra jurnalist və ya digər şəxs öz peşəsinə xəyanət etməməli, obyektivliyini, tərəfsizliyini qorumalıdır. Müxalifətçilərə ev verilməsi söhbəti isə məncə, artıq məsələnin ironiyalaşdırılması, müxalifətin gözdən salınmasıdır. Düşünmürəm ki, müxalifət nümayəndələrinə ev verilməlidir. Çünki müxalifət birbaşa olaraq opponentdir və işi konkret olaraq hakimiyyətə gəlmək üçün yollar axtarmaq, dövlətin, millətin mənafeyinə xidmət etməkdir. Odur ki, müxalifətə bu və ya digər formada verilən hansısa güzəştlər birmənalı qarşılana bilməz və qarşılanmayacaq. Ona görə də bu cür avantürist fikirlərin əleyhinəyəm. Ev əvəzinə müxalifətin normal fəaliyyət göstərməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş halların həyata keçirilməsinə şərait yaradılsa daha yaxşı olaraq. Hafiz Hacıyevin təklifini ciddi qəbul etmirəm".

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev də hesab edir ki, müxalifət liderlərinə ev verilməsi asılılıq yarada bilər:** "Bu təklifi edən yanlışa yol verir. Azərbaycan müxalifəti hakimiyyətin potensial tənqidçisidir, şəxsən mən öz adımdan ev almaram. Ola bilər kimsə gizlin və ya başqa formada hakimiyyətə qulluq edir. Ancaq nə mənim, nə də bizim partiyanın hakimiyyət təmsilçiləri ilə heç bir formada əlaqəmiz, təmasımız mövcud deyil. Hesab edirəm ki, jurnalistlərə ev verilməsini normal qiymətləndirmək lazımdır. Mənzillər dövlət büdcəsindən maliyyələşdirilib, dövlətin pulu ilə verilib. Ona görə də jurnalistlər də hakimiyyət qarşısında heç bir mənəvi öhdəliyə malik olmamalıdırlar. Mənzillərin verilməsi bizim birbaşa olaraq siyasi rəqibimizin qərarı ilə ola bilər. Bu baxımdan, partiya sədri olaraq hakimiyyətdən maddi dəyəri olan nəyisə qəbul etmək yanlışdır".

**ADP sədrinin müavini Həsrət Rüstəmov isə hesab edir ki, bütün vətəndaşlar dövlət tərəfindən mənzillə təmin olunmalıdır:** "Söylənən təklifdə məntiq yoxdur. Əslində ev təkcə jurnalistə, həkimə, müəllimə deyil, bütün Azərbaycan vətəndaşlarına verilməlidir. Ümumi yanaşarsaq, hökumət çalışmalıdır ki, mənzilə ehtiyacı olan Azərbaycan vətəndaşlarının hər birinin evi olsun. Təbii ki, bu məsələdə ayrı-ayrı kateqoriyalar da nəzərə almaq olar. Məsələn, hərbiçiləri, həkimləri, jurnalistləri nəzərə almaq olar ki, onlar daha tez mənzil əldə etsinlər. Müxalifətçilərə ev verilməsi isə bəlkə də ironik deyilmiş, çox qeyri-ciddi bir təklifdir. Birincisi, müxalifət bunu qəbul etməz, ikincisi də hökumət də heç müxalifətə ev verməz. Yaxşı olar ki, ipoteka şərtləri yumşaldılsın, Azərbaycanın milli gəlirlərindən bir hissəsi insanların məişət şəraitinin yaxşılaşdırılmasına sərf olunsun. Bunun üçün hökumətə xeyli sayda təkliflər də edilib. Ancaq hələ ki həyata keçirilməyib. Jurnalistlərin mənzil alması məsələsi müsbət haldır. O mənada ki, bu, onların gələcək fəaliyyətlərinə təsir göstərməyəcək. Yəni jurnalistlər bu mənzilləri hökumətin deyil, dövlətin verdiyi hədiyyə kimi qəbul etsinlər, lazım gəldikdə hakimiyyəti tənqid etməkdən də çəkinməsinlər".

**KXCP sədrinin müavini Xəzər Teyyublu da "Yeni Müsavat"a məsələ ilə bağlı münasibətini bildirib:**

"Media hər zaman Azərbaycanın siyasətində ictimai rəyi formalaşdıran bir sahədir. Ona görə də evsiz jurnalistlərə ev verilməsini təqdir etmək lazımdır. Ümumiyyətlə, təkcə jurnalistlər deyil, bir Azərbaycan vətəndaşının evi yoxdursa, o mütləq evlə, işlə təmin olunmalıdır. Lakin statuslara bölmək lazım deyil ki, bu, filankəsdir və mütləq evi olmalıdır. Bu cür yanaşmanı doğru hesab etmirəm. Hələ sovet dönəmində gənc mütəxəssislər, alimlər və digər peşə sahiblərinə evlər verilərdi. Müxalifətə ayrıca ev verilməsi məsələsi də bir qədər nağılvaridir. Verilirsə, verilsin də. Ölkədə 56 siyasi partiya var və hər bir partiyanın da 10 minlərlə üzvü varsa, onların hamısına ev verilməlidir? Bu məsələlərə qeyri-ciddi baxıram".

❑ **Əli RAİS**



# Rüstəm İbrahimbəyov Bakıdakı məhkəmə qalmaqalından danışdı

## "Cavab alan kimi vəkil hərəkətə keçəcək"

**Bu günlərdə Ali Məhkəmə Azərbaycan Kinematoqrafçılar İttifaqına aid Mingəçevirdəki "Yaradıcılıq evi" ilə bağlı qərar qəbul edib. Qurumdan moderator.az saytında verilən məlumata görə, Ali Məhkəmə qurumun xeyrinə olan qərarı ləğv edib. Xatırladaq ki, ittifaq ilə "Azenko" şirkəti arasında məhkəmə çəkişməsi artıq iki ildir ki, davam edir. Belə ki, "Yaradıcılıq evi" 1989-cu ildən ittifaqın balansında olub. Lakin 1993-cü ildən həmin binada məcburi köçkünlər məskunlaşıb. 2013-cü ildə binada məskunlaşmış məcburi köçkünlərin bir hissəsi mənzillərlə təmin olunduqdan sonra "Azenko" şirkəti binanı söküb. Nəticədə ittifaq şirkəti məhkəməyə verib. Ekspertizanın qərarına əsasən ərazinin kommersiya dəyəri yarım milyon manata yaxındır. Qeyd etdiyimiz kimi, məhkəmə ittifaqın xeyrinə qərar versə də Ali Məhkəmə həmin qərarı ləğv edib. Qurumdan bildirilib ki, bununla bağlı Milli Kino günü ərəfəsində müraciət qəbul ediləcək.**



Qeyd edək ki, hər il avqustun 2-də ölkədə Milli Kino Günü keçirilir. Azərbaycan Kinematoqrafçılar İttifaqının təsis etdiyi Milli Kino Mükafatı da bu tarixdə öz sahiblərinə təqdim olunur.

Maraqlıdır, ittifaqın sədri, hazırda xaricdə yaşayan rejissor Rüstəm İbrahimbəyov Milli Kino günündə Bakıya gələcəkmi?

**Məsələ ilə bağlı ittifaq sədri "Yeni Müsavat"a açıqlama verib:** "Xeyr, mən gəlməyəcəm. Lakin avqustun 2-də bizim böyük idarə heyətimiz, təxminən 30-40 nəfər yığışaraq Milli Kino gününü qeyd edəcək və 3 mükafat təqdim olunacaq. Ümumiyyətlə, hər il kino günündə 3 nəfərə mükafat veririk. Hələlik bu il mükafat qazananların adlarını deyə bilmərəm. Amma qeyd edim ki, mükafat bir bədii filmin rejissoruna, operator və sənədli filmin rejissoruna veriləcək. Mükafatın adı "Premyera"dır"".

**Rüstəm İbrahimbəyov Bakıya gələ bilməməsinin səbəbini də açıqlayıb:** "Avqustun 5-də mən böyük beynəlxalq festivalda iştirak edəcəm. Həmin festivalda jüri üzviyəm".

**İttifaq sədri "Azenko" şirkəti ilə bağlı qərarın məhkəmə tərəfindən ləğv olunmasına isə bu cür mövqe bildirib:** "Hələlik bu barədə rəsmi kağız almamışıq. Həmin sənədi alan kimi rəsmi surətdə Apelyasiya Məhkəməsinə müraciət edəcəyik. Məlumatımız var ki, qərar ləğv olunub. Lakin qərarın hansı səbəbdən ləğv olunduğu haqda bilmirik. Bu barədə rəsmi cavab aldıqdan sonra vəkilimiz hərəkətə keçəcək".

Qeyd edək ki, Rüstəm İbrahimbəyov 1980-ci ildən Azərbaycan Kinematoqrafçılar İttifaqında rəhbərlik edir.

❑ **Xalidə GƏRAY**

## Rusiya XİN prezidentləri görüşdürəcəyi xəbərini təkzib etdi

**Rusiya Xarici İşlər Nazirliyi (XİN) Azərbaycan və Ermənistan prezidentlərinin Rusiyada görüşünün keçiriləcəyi ilə bağlı məlumatlara aydınlıq gətirib.**

APA-nın Moskva müxbirinin məlumatına görə, Rusiya XİN rəsmi nümayəndəsinin müavini Artyom Kojin bildirib ki, bir müddət əvvəl "İzvestiya" qəzetində Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün guya Moskvada keçirilməsi ilə bağlı yayılan məlumatla tanışdırlar.

"Biz bu məlumatla tanışıq. Həmin məlumatda prezidentlərin görüşü ilə bağlı qeyri-dəqiqliyə yol verilib. Bu qeyri-dəqiqliyə aydınlıq gətirmək istəyirik. "İzvestiya"da yayılan məlumatda Rusiya XİN-dəki mənbəyə istinadən rəsmi Moskvanın Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil edəcəyi bildirilib. Lakin bu məlumat həqiqətə uyğun deyil.

Belə ki, həmin məlumatda prezidentlərin görüşü barədə təklifin ATƏT xarici işlər nazirlərinin Avstriyada keçirilən iclasında Rusiya, Azərbaycan və Ermənistan XİN başçılarının görüşündə verildiyi bildirilib. Qeyd edim ki, həmin görüşdə heç də adıçəkilən dövlətlərin XİN başçılarının hamısı iştirak etməyib.

Azərbaycan və Ermənistan xarici işlər nazirləri həmsədrlərin təşkilatçılığı ilə Brüsseldə görüşüblər. Həmin görüşdə ilin sonuna kimi Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün keçirilməsi müzakirə olunub. Görüşün yeri isə predmet olaraq müzakirə edilməyib.

Qarabağ münaqişəsinin həssas olduğunu nəzərə alaraq, "İzvestiya" qəzetini bu mövzu ilə bağlı mənbəyə deyil, rəsmi məlumatlara istinad etməyə çağırırıq", - deyə A. Kojin bildirib.

## SOCAR prezidenti Azərbaycanın enerji layihələrinin tikintisindən danışdı

**Cənub Qaz Dəhlizi layihəsi, o cümlədən onun komponentləri olan TANAP və TAP layihələri Avropanın enerji təhlükəsizliyinin təmin olunması baxımından olduqca əhəmiyyətli layihələrdir".**

"APA Economics" xəbər verir ki, bunu "Anadolu" agentliyinə müsahibəsində SOCAR prezidenti Rövnəq Abdullayev bildirib.

TANAP-ın tikintisinin sürətlə davam etdiyini bildirən SOCAR prezidenti qeyd edib ki, layihənin uğurunun təməlində Azərbaycanla Türkiyə arasında qurulan sağlam münasibətlər dayanır. "Hazırda TANAP-ın tikintisinin 77,3%-i tamamlanıb. Bildiyimiz kimi, ilkin mərhələdə bu kəmər vasitəsilə 2018-ci ilin ikinci yarısından etibarən Türkiyəyə 6 mlrd. kubmetr qaz nəql olunacaq. İkinci mərhələdə bu kəmər vasitəsilə Avropaya 10 mlrd. kubmetr qaz ixrac ediləcək. Biz ikinci mərhələyə 2019-cu ildən hazır olacağıq, lakin Avropanın hazır olması üçün 2020-ci ili gözləmək lazımdır. Sevindiricidir ki, Türkiyə hökuməti bu layihəyə böyük dəstək verir. Bunun hesabına biz layihənin reallaşdırılmasında qrafiki qabaqlayırıq", - deyə R. Abdullayev qeyd edib.

Dövlət şirkətinin rəhbəri deyib ki, indiyədək TANAP-a 8,5 mlrd. dollar məbləğində investisiya yatırılıb.

## BTQ-yə daha çox ölkə qoşula bilər

**"Bakı-Tiflis-Qars dəmir yolu layihəsində daha çox ölkələrin iştirak edəcəyinə əminəm".**

APA-nın Gürcüstan bürosunun məlumatına görə, bunu Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Giorgi Qaxaria deyib.

O, layihənin tezliklə istifadəyə veriləcəyinə ümidvar olduğunu qeyd edib.

"Layihə bizim iqtisadi, mədəni və siyasi inkişafımıza töhfə verəcək", - deyə nazir vurğulayıb.

Qeyd edək ki, Qarsda Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Giorgi Qaxaria, Türkiyənin nəqliyyat, dənizçilik və kommunikasiya naziri Ahmet Arslan, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov arasında görüş keçirilib. Görüşdə iştirak etmiş "Gürcüstan Dəmir Yolu" SC-nin sədri Mamuka Baxtadze Bakı-Tiflis-Qars dəmir yolunun əhəmiyyətini qeyd edib: "Bakı-Tiflis-Qars dəmir yolu Gürcüstanın nəqliyyat potensialının inkişafı üçün geniş imkanlar yaradır. Bu layihə Mərkəzi Asiya ölkələrini region ölkələri və bizim regionu Avropa bazarları ilə birləşdirəcək"



# İslaholunmaz Jirinovskinin bəyanatına Bakıdan təpkilər

**Rusiya Liberal-Demokrat Partiyasının (LDPR) lideri Vladimir Jirinovski növbəti dəfə keçmiş sovet respublikalarındakı münaqişələrin həlli ilə bağlı özünün "orijinal" ideyasını irəli sürüb.**

Virtualaz.org Rusiya KİV-lərinə istinadən xəbər verib ki, Jirinovski Dövlət Dumasında jurnalistlərlə söhbətində bu münaqişələrin həllinin yeganə yolunun "bütün respublikaların yenidən vahid dövlətin tərkibinə qayıtması" olduğunu bildirib: "Bizdə Donbas, Dnestryanı, Abxaziya, Osetiya, Qarabağ əzab çəkir. Həll yolu bir-dir-ancaq vahid ölkənin bərpası, bunsuz qan və zorakılıq hələ onilliklər bundan sonra davam edəcək".

LDPR lideri hesab edir ki, ölkələrin birləşməsi ancaq referendum yolu ilə olmalıdır. Onun fikrincə, keçmiş SSRİ-nin heç bir respublikası yenidən Rusiya ilə birləşib vahid ölkədə yaşamaqdan imtina etməz: "Referendum yolu ilə vahid böyük ölkə. Normal referendumda hamı, o cümlədən Pribaltika SSRİ sərhədlərinə qayıdacaq".

LDPR lideri bundan əvvəl də bir neçə dəfə Qarabağ münaqişəsinin həll yolu kimi "Azərbaycan və Ermənistanın Rusiyaya birləşməsini" təklif edib.

Qeyd edək ki, V.Jirinovskinin bu cür bəyanat və çağırışları ilk dəfə deyil. Bu adam dəfələrlə keçmiş SSRİ respublikalarını Rusiyaya birləşdirməyə, bəzi bəyanatlarında isə Dağlıq Qarabağı, Ukrayna, Gürcüstan və Moldovadakı münaqişə bölgələrini Rusiyaya birləşdirməyə çağırıb. 2014-cü ildə isə V.Jirinovski Bakıda səfərdə olub, paytaxtın mərkəzi və tarixi küçələrində gəzib Azərbaycanı tərifləmişdi. Lakin buradan getdikdən bir müddət sonra yenidən Azərbaycanın əleyhinə danışmışdı. O zaman Jirinovskinin Bakıya gətirilməsini Milli Məclisin AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun təşkil etdiyi barədə xəbərlər yayılmışdı. Jirinovskini Bakı gəzintisində məhz Səməd Seyidov müşayiət edirdi. Lakin nə Jirinovskinin o zaman Bakıdan getdikdən bir müddət sonra Azərbaycan əleyhinə çağırışlarına, nə də son çağırışına S. Seyidovdan reaksiya olmadı.

**Azərbaycan-Rusiya parlamentlərarası dostluq qrupunun üzvü deputat Fazil Mustafa "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan tərəfi V.Jirinovskinin Azərbaycanın suverenliyi əleyhinə olan açıqlamaları ilə bağlı Rusiya tərəfinə etirazını bildirməlidir:** "Müstəqillik elə bir dəyərdir ki, hətta müəyyən dərəcədə Rusiya ilə münasibətlərin normallaşmasını istəyən qüvvələr belə, heç vaxt müstəqillikdən uzaqlaşacaq siyasət izlənməsinə maraqlı ola bilməzlər. O baxımdan da mən hesab edirəm ki, hansısa respublikada da Jirinovskinin dediyi kimi Rusiyaya birləşmək referendumu keçirilməsi illüziyasının baş tutması mümkün deyil. Ona görə də biz çox vaxt Jirinovskiyə sərsəm fikirlər səsləndirən bir siyasətçi kimi yanaşırıq və bəzən onu çox ciddiyə almağa çalışmırıq. Amma ona, hər halda, cavab verilməlidir. Çünki Jirinovskinin fikirləri yekəbaşlıqdır və Azərbaycanın da suveren hüquqlarına qarşı müdaxilədir. Belə bir mövqe ilə heç barışmaq mümkün deyil, ona sərt reaksiya verməyimiz vacibdir. Etirazımızı bütün müstəvilərdə bildirməyimiz vacibdir".



**Fazil Mustafa:** "Onun fikirləri Azərbaycanın da suveren hüquqlarına qarşı müdaxilədir, ona sərt reaksiya verməyimiz vacibdir"



**Qabil Hüseynli:** "Onun verdiyi bəyanatlar bir müddət keçdikdən sonra Rusiyanın rəsmi siyasətinə çevrilir, amma..."

**F.Mustafa qeyd etdi ki, Jirinovskinin Azərbaycan barədə düşüncələrinin dəyişməsi üçün müəyyən addımlar atıldı və bu normal idi. Amma belə görünür ki, onun düşüncələri əvvəlki kimi qalır. Jirinovski keçmiş SSRİ respublikaları ilə bağlı çox anormal bir ideya səsləndirir və bu ideyanın reallaşması mümkün deyil:** "Jirinovskinin hədəfi bir Azərbaycan deyil, digər respublikalar da onun hədəfidir. Bu adam imperiya düşüncəsinin daşıyıcısıdır. Onun islah olunacağını, dəyişəcəyini gözləmək sadəlövhlük olar".

**Politoloq Qabil Hüseynli isə hesab edir ki, Vladimir Jirinovskinin açıqlamalarını həm də Rusiyanın arzusu kimi dəyərləndirmək mümkündür. Jirinovskinin əsasən Kremlin göstərişi əsasında danışdığını deyən Qabil Hüseynli bildirdi ki, Kremlin planlarında yeni SSRİ-nin yaradılmasının olması mümkündür:** "Jirinovski nə qədər təxribatçı olsa da onun sözləri Rusiya xarici siyasətinin xətti ilə uyğun gəlir. Çox təhlükəli tendensiyadır. Bəzi insanlar Jirinovskini qeyri-ciddi adam, onun fikirlərini qeyri-ciddi fikirlər hesab etsələr də, mən əminəm ki, o, Kremllə razılaşdırmamış heç bir bu cür bəyanat vermir və verə bilməz. Əslində Vladimir Jirinovskinin bu bəyanatları Kremlin Azərbaycana və digər keçmiş sovet respublikalarına təzyiqi kimi qəbul edilməlidir. Diqqətli müşahidəçilər bilir ki, Jirinovskinin verdiyi bəyanatlar bir müddət keçdikdən sonra Rusiyanın rəsmi siyasətinə çevrilir".

Bununla belə, Q.Hüseynlinin sözlərinə görə, Jirinovskinin və Rusiyadakı bir sıra qüvvələrin arzularının gerçəkləşməsi mümkün deyil. Çünki Rusiyanın özünün daxilində vəziyyət, eləcə də beynəlxalq birliklə münasibətləri getdikcə pisləşir. Rusiyanın özünün regionlarında mərkəzdənqaçma meyllərinin baş qaldırması daha çox ehtimal olunur. Odur ki, Rusiya gələcəkdə hazırkı sərhədlərini necə qorumaq istiqamətində daha çox məşğul olmalı ola bilər, nəinki keçmiş SSRİ respublikalarını özünə birləşdirməklə.

❑ **Etibar SEYİDAĞA**

# Sabiq nazir müavinindən casus şəbəkəsi ilə bağlı sensasion iddia

## Sülhəddin Əkbər: “"Praktikada elə hallar var ki, tutulanların açıq şəkildə Rusiya ilə əlaqəli olduqları bilinir, amma başqa dövlətin adı çəkilir"

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həyata keçirilmiş əks-kəşfiyyat tədbirləri nəticəsində xarici xüsusi xidmət orqanlarının tapşırığı üzrə Azərbaycan ərazisində casusluq yolu ilə toplanılmış məlumatları kiçik ölçülü elektron informasiya daşıyıcılarında Azərbaycan Respublikasından çıxarmağa çalışan Muxtar Yağubov ölkəni tərk etməyə cəhd edərkən saxlanılıb. DTX-nin İctimai əlaqələr şöbəsindən verilən məlumata görə, dövlətə xəyanət faktı üzrə casus şəbəkəsinin üzvləri - Azərbaycan vətəndaşları Yağubov Muxtar Camal oğlu, Əhmədov Şakir Xanlar oğlu, Zeynallı Zəka Abış oğlu, Abbaszadə Səbuhi Oktay oğlu, Nuriyev Xudaşükür Məcid oğlu və Hüseynov Kəmaləddin İsaxan oğlu ifşa edilərək cinayət məsuliyyətinə cəlb ediliblər. İstintaq-əməliyyat tədbirləri nəticəsində xarici xüsusi xidmət orqanları ilə qarşılıqlı yazışmalar və ötürülməsi nəzərdə tutulan müxtəlif xarakterli məlumatlar aşkarlanaraq ələ keçirilib, casus şəbəkəsinin xarici xüsusi xidmət orqanlarının tapşırığı üzrə dövlət məmurları, ictimai xadimlər və digər dairələrə nüfuz etmək, Azərbaycanın təhlükəsizlik orqanları, silahlı qüvvələri, ölkədə aparılan təhlükəsizlik tədbirləri barədə məxfi məlumatları toplamaq istiqamətində fəaliyyət göstərdiyi müəyyən edilib.**

**Təhlükəsizlik və geosiyasi məsələlər üzrə ekspert Arzu Nağıyev** deyir ki, kimisə dövlətə xəyanət ittihamı ilə həbs ediblərsə, deməli, bu, əməliyyat-axtarış fəaliyyəti ilə məşğul olan bir qurumun uzun müddət apardığı müşahidələrin nəticəsidir: “Xarici ölkəyə casusluq edən şəxslərdən birinin ölkədən qaçmaq istəməsi onun topladığı məlumatları sifarişçiyə çatdırması üçün atılan addım olduğunu təsdiq edir. Məhz bu səbəbdən o, sərhəddə həbs edilib. Bundan başqa, belə bir maddə ilə cinayət işi başlamaq üçün obyekt, subyekt, obyektiv və subyektiv tərəflər tam şəkildə olmalıdır. Böyük ehtimalla, istintaq dövründə bunların hamısı tam leqallaşdırılacaqdır”.

**Ekspertin fikrincə, burada əsas məsələ casusluq faktının olmasıdır:** “Əgər tutulan Muxtar Yağubov casusluq yolu ilə toplanılmış məlumatları kiçik ölçülü elektron informasiya daşıyıcılarında Azərbaycandan kənara çıxarmağa cəhd edibsə, deməli, o, buna uzun müddət hazırlaşıb. Xaricdən ona verilən sifarişi yerinə yetirib. Maraqlıdır ki, həmin şəxs dövlət əhəmiyyətli məlumatlara necə yol tapıb, onları necə əldə edib? Əlbəttə, bu da təfsilatı ilə araşdırılacaq. Bildiyim qədər casus şəbəkəsinin topladığı məlumatlar arasında məxfi, tam məxfi, dövlət əhəmiyyətli məlumatlar var. Bu məlumatların konkret nədən ibarət olması çox önəmlidir”.

**A.Nağıyev hesab edir ki, istintaq dövründə həbs olunanların sayı daha da arta bilər:** “Hətta düşünürəm ki, artıq həmin çevrə və oradakıların fəaliyyəti barədə əməliyyat orqanında lazım olan məlumatlar var”.

**Xüsusi xidmət orqanının yüksək rütbəli sabiq əməkdaşı ictimaiyyətə açıqlanan məlumatda casus şəbəkəsinin hansı dövlətə işləməsinin nə üçün qeyd edilməməsinə də aydınlıq gətirib:** “İstintaq getdiyi dövrdə casusların hansı ölkəyə işləməsini açıqlamaq qeyri-mümkündür. Məsələ ondadır ki, sifarişçi 3-cü, 4-cü ölkə də ola bilər. Yəni bir şəxs hansısa ölkənin sərhədində tutulursa, bu o demək deyil ki, casus məlumatları məhz həmin ölkəyə ötürür. Hər halda, əminəm ki, həmin məlumatların sifarişçisinin hansı ölkə olduğu tam dəqiqləşdirilib. Ancaq əməliyyat məlumatları olduğuna görə onları tam açıqlamaq qeyri-mümkündür. Çünki hələ bu faktlar tam istintaq hərəkətləri ilə sübuta yetirilməlidir. Bundan əlavə, xüsusi xidmət orqanlarında "3-cü bayraq altında" deyilən məfhum var. Yəni kimlərinsə bir ölkənin ərazisində hansısa cəlbetməni digər ölkə üçün 3-cü bayraq altında etmələri mümkündür. Məhz bu səbəblərdən hələlik casusların hansı ölkənin sifarişi əsasında Azərbaycana xəyanət etmələri açıqlanmır".




**Azərbaycan xüsusi xidmət orqanının sabiq birinci müavini Sülhəddin Əkbər casus şəbəkəsi üzvlərinin həbsini şərh edərkən deyib ki, cəmiyyətə verilən açıqlama obyektiv, hərtərəfli, tam olmalıdır, cəmiyyətdə suallar yaratmamalıdır:** “Məlumatlandırma tam deyil. Həbs olunanlar hansı dövlətin xüsusi xidmət orqanına xidmət ediblərsə, bu, göstərilməliydi”.

**S.Əkbər deyir ki, belə məlumatların təhlili göstərir ki, adətən Rusiya xüsusi xidmət orqanları ilə bağlı olan hallarda konkret dövlət adı çəkilmir:** “Praktikada elə hallar da var ki, tutulanların açıq şəkildə Rusiya ilə əlaqəli olduqları bilinir, amma başqa dövlətin adı çəkilir”.

**Sabiq təhlükəsizlik zabiti tutulanların Azərbaycanda topladıqları məlumatların daşıyıcılarda ölkədən çıxarmaq istəyinin onların qeyri-peşəkar olmalarına dəlalət edən fakt kimi qiymətləndirilməsinə belə münasibət bildirdi:** “Doğrudur, internetin, xüsusi proqramların olduğu bir dönəmdə toplanan məlumatların daşıyıcılarda - istər hard-disk olsun, istərsə də fleş-kart və ya digər bir vasitədə ölkədən çıxarmaq istəyi qəribə görünür. Amma bu gün elə daşıyıcılar var ki, açırsan, hansısa müğənninin konsertinin, oyun proqramının yazıldığını görürsən. Hər bir xüsusi xidmət orqanının informasiya daşıma yolu var. Amma həmin konsertin, oyun proqramının olduğu disk, digər daşıyıcıya xüsusi şifrə yazılanda tamam başqa görüntülər - gizli şəkildə casusların çəkdiyi video, əldə olunan məlumatlar, bir sözlə, daşıyıcıya yazılan, lakin şifrəsiz baxılması mümkün olmayan informasiyalar ortaya çıxır”.

**S.Əkbər deyir ki, Azərbaycan böyük güclərin qarşı-qarşıya gəldiyi bir regionda yerləşdiyindən, bura bir çox dövlətlərin xüsusi xidmət orqanlarının maraq dairəsindədir:** “Azərbaycanlıların əksəriyyəti hansı coğrafiyada yaşadıqlarının fərqində deyillər. Azərbaycan geopolitik baxımdan çox mürəkkəb bir məkanda qərarlaşıb. Geopolitikda Hartlənd və Rimlənd anlayışları var. Hartlənd Rusiya, Rimlənd okean ərazisindəki sahil qurşağıdır. Azərbaycan Hartləndlə Rimləndin arasındadır. Ona görə də Azərbaycan Hartlənd və ya əksinə Rimlənd uğrunda aparılan mübarizədə həmişə savaş meydanına çevirilir. Rusiya ilə ABŞ və onun ABŞ-ın müttəfiqləri arasında gedən geopolitik savaşda biz coğrafi olaraq ortadayıq. Bundan başqa, Rusiya ilə İranın arasındayıq. Dünya siyasəti ilə məşğul olanlar bilirlər ki, Azərbaycan Qacarlar dövlətinin bir parçası olub. Bunu Azərbaycan türklərinin böyük əksəriyyəti dərk etməsələr də, dünya siyasəti ilə məşğul olanlar yaxşı bilirlər. Hazırda Azərbaycan müharibə vəziyyətindədir. Və ən nəhayət, Azərbaycanın taleyi həll olunmayıb. Digər tərəfdən, Azərbaycanın yerləşdiyi regionda geopolitik, geostrateji, geoekonomik, geokültürəl mübarizə gedir. Taleyimiz geoekonomik baxımdan nisbətən həll olunub. Geokültürəl taleyimiz bəllidir - əhalinin böyük hissəsi İslam dininə etiqad edir. Geopolitik, geostrateji baxımdan bunları demək olmaz. Azərbaycan strateji seçimini etməyib. Nə Avropa Birliyinin NATO yoluna, nə də Avroasiya Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) qoşulmayıb. Düşünürlər ki, neytral yol seçmək daha uyğun, təhlükəsizdir. Amma tam əksinədir. Azərbaycan kiçik dövlət olduğuna görə seçim edənə qədər daim ikitərəfli - Rusiya və Qərbin təzyiqi altında olacaq. Azərbaycan KTMT-ni seçəcəksə, Azərbaycan sərhədlərini sovet dövründə olduğu kimi Rusiya qorumalıdır. Hava hücumundan müdafiə sistemləri Rusiyanın anoloji sistemlərinə birləşdirilməlidir. Və ya NATO və Avropa Birliyinə qoşulmalı, NATO təhlükəsizlik sistemi çətiri altına keçməlidir. Bu seçim olmayınca Azərbaycanda xarici dövlətlərin xüsusi xidmət orqanlarının xüsusi marağı qalacaq”.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Mənzil mərasimindəki təəssüratlar



**Xalid KAZIMLI**

**Jurnalistlərə paylanası mənzillərlə bağlı keçirilən mərasimdə arxa sıralarda oturmuşdum. Mən tribunada çıxış edən prezident İlham Əliyevi görürdüm, amma o, məni təbii ki, görmürdü. Ancaq bir ara mənə elə gəldi ki, prezident sırf məni nəzərdə tutaraq bir cümlə işlətdi.**

Həmin cümlə beləydi ki, bəzi jurnalistlər müxalif siyasi partiyaların üzvü olmasına baxmayaraq, ayrı-seçkilik etmədik, tənqidçi jurnalist olub-olmamaları bu seçimdə rol oynamadı.

Hətta yanımda oturan tanınmış jurnalist də dirsəyimə toxundu, yəni “səni deyir”. Həmin vaxt, bir də sonra mərasimdə iştirak edən, bir qədər sonra ev alacaq tanıdığım jurnalistlərə baxdım, orada nə məndən artıq tənqidçi jurnalist olan vardı, nə də siyasi partiya üzvü olaraq qalan bir başqası.

Daha sonra internet resurslarında bir informasiyaya rast gəldim: “İlham Əliyev Müsavatdan istefa vermiş jurnalistlərə də ev verdi”. Həmin informasiyada mənim də adım çəkilirdi.

Məqalənin içində isə qeyd olunurdu ki, guya mən partiyada fəaliyyətimi dondurmuşam.

Bu, tamam yanlışdır. Düzdür, son üç ildə siyasi fəaliyyətim son dərəcə zəifdir, ancaq partiya mənsubluğum qalır, nə partiyadan çıxmaq barədə ərizə vermişəm, nə də müvafiq bəyanat səsləndirmişəm.

Ən qəribəsi isə budur ki, prezident mənim Müsavat üzvü olaraq qaldığımı bilir, öz partiyamın rəhbərliyi isə bilmir, elə hesab edir ki, istefa vermişəm.

Bunları keçək. Hazırda əsasən mənzil bölgüsünə həsr olunmuş mərasimdə məndə yaranan təəssüratları yazmaq istəyirəm.

Çoxlu tanış sima gördüm. Aralarında 20-25 il, hətta 30-40 öncədən tanıdıqlarım vardı. Məsələn, mən 40 il əvvəl sovet qəzetlərini oxuyanda Şakir Yaqubovun imzasını görürdüm. Ustad jurnalist də sinninin bu çağında bəlkə də həyatının, karyerasının ən böyük mükafatını alırdı.

İlqar Əlfi ilə söhbətləşdik. Onun 35 il öncə yazdığı “Xof” povestini xatırladıq, atasından - jurnalist-yazıçı Əlfi Qasımovdan söz saldıq. Əlfi müəllimin təxminən 50 il öncə yazdığı “jurnalistlərin həyatndan bəhs edən Adilənin taleyi” romanından danışdıq.

Müstəqil mediamızın qaranquşları olan Hüseynbala Səlimovu, Bahəddin Həziyevi, Azər Rəşidoğlunu mərasimdə görmək xoş idi. Bu, onların da mükafatlandırılacağı anlamına gəlirdi. Yeri gəlmişkən, prezident bəlkə də məhz onları nəzərdə tutaraq ciddi təhlillər yazan, hətta bəzi siyasilərdən daha artıq analitik təfəkkürü olan jurnalistlərdən bəhs etdi.

Onların sırasında bircə Hikmət Sabiroğlu çatışmırdı. Çünki o da müstəqil mediamızın ilk parlaq imzalarından biridir. Fəqət məlum oldu ki, Hikmət bəy ona ərizə ilə müraciət etməyi təklif edən səlahiyyətli şəxslərə “mənə lazım deyil, ehtiyacı olan şəxslərə verin” deyə təklifdən imtina edib.

Ehtiyacı olan şəxslər isə çox idi. Söz yox, onların sırasında evə ehtiyacı olmayanlar da vardı. Amma bu tədbir evsizlərə ev paylamaq mənası daşımırdı, bu, əsasən ölkə mediasının inkişafında rolu olan, uzun illər parlaq yazılara imza atan mətbu ustaların mükafatlandırılmasıydı.

Biz mənzil şəraitinin yaxşılaşdırılması bəndindən yararlanan qrupdan idik. Mənzillər bölüşdürülərkən diqqət etdik ki, bu barədə siyasi qərar verənlər hər şeyi diqqətlə, yerli-yataqlı incələyiblər, çox adama bəlli olmayan detalları öyrəniblər və nəzərə alıblar. Elə olmasaydı, hazırda heç bir media orqanında işləməyən, o qədər də böyük iddiası, gözləntisi olmayan şəxslərə mənzil verilməzdi, jurnalist cütlüklər nəzərə alınmazdı.

İndi bəziləri deyir ki, bu, jurnaistlərin ələ alınmasıdır. Elə şey yoxdur. Rəhmətlik jurnalist İbrahim Bayandurlu (eləcə də digər mərhum həmkarlarımız) neçə ildir həyatda yoxdur, onların ələ alınmasından, susdurlmasından necə söhbət gedə bilər. Eləcə də veteran jurnalistlər. Artıq yazmırlar. Onlardan mədh uman da yoxdur. Təkcə onlara görə də busiyahını gerçəkdən də “möhtəşəm siyahı” adlandıranlar haqlıdır.

Özümə gəlincə, deyim ki, mən tənqidçi jurnalist olaraq qalacağam. Məndən mədhiyyə tələb edən yoxdur. Üstəik, prezident jurnalistlərin ölkədəki neqativ hallardan yazmalarına yaşıl işıq yandırdı.

Mənzil üçün siyahılar müəyyənləşdirilərkən iclasda bir söz demişdim. Demişdim ki, əsas məsələ son mənzilə malik olmaqdır, o da hamıya qismət olacaq. Hər şeyin fani olduğu dünyada əsas şey normal, adam kimi yaşamaqdır.

Sözümün sonunda bir daha bizim mənzil sahibi olmağımızda rolu olan, buna görə sevincini bölüşən hər kəsə, konkret olaraq prezident İlham Əliyevə təşəkkürümü bildirirəm.



# Satışda təhlükəli broyler toyuqları var

**Eyyub Hüseynov:** "Onların tərkibində 4 faiz əvəzinə 40 faizə qədər naməlum maye var"



**Ötən gün mətbuatda Azərbaycanda qida üçün yararsız olan toyuq ətlərinin satışda olması ilə bağlı məlumat yayılıb. Bu iddia ilə Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov haqqın.az-a açıqlamasında çıxış edib. O bildirib ki, bu məhsullar Ukraynadan ölkəmizə gətirilib: "Keçən ilin may ayında istehlakçılar AİB-ə şikayət edərək bildiriblər ki, "Qualiko" (Viniskaya toyuq fabrikası) toyuq məhsullarında nəmliyin miqdarı çoxdur. AİB-in ekspertizası müəyyən edib ki, həmin məhsullarda nəmliyin miqdarı normadan çoxdur, norma 4% olduğu təqdirdə bu məhsullarda nəmlik 40% olub. Üstəlik, toyuq məhsullarına naməlum kimyəvi maddələr əlavə olunub".**



AİB sədri qeyd edib ki, təzəlikcə "Qualiko" toyuq məhsulları yenidən Azərbaycan bazarına daxil olub: "Bu dəfə ekspertizanı Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Komissiyası keçirib. Nəticədə toyuq məhsullarında normadan artıq baytarlıq preparatları aşkar edilib: "Məhsulun insan həyatı üçün təhlükəli olması təsdiqlənib. AİB bununla bağlı sənədləri Baş Prokurorluğa göndərib. Lakin bizdə olan məlumata görə, "Qualiko" məhsulları Bakının mərkəzində Mirəli Qaşqay küçəsində, Keşlə, Sumqayıt, Xırdalan, Lənkəranda və Gəncədə satılır. Əsasən, təhlükəli məhsullar Bakıda toyuq dönəri üçün geniş istifadə olunur".

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bir daha vurğuladı ki, bu cür məhsullar artıq ikinci dəfədir ki, ölkəmizə ayaq açır:** "Azərbaycan broyler fabrikləri bütün əhalini yerli broyler məhsulları ilə tam təmin etməyə hazırdır. Anbarlarda kifayət qədər artıq məhsullar yığılıb qalıb. Ötən ilin aprel-may aylarında Ukraynadan Azərbaycana külli miqdarda toyuq ətləri gətirildi. AİB ötən il də monitorinq apardı, dövlət qurumları arasında məsələ qaldırdı və həmin məhsulların yoxlanmasına nail oldu. Onların tərkibində 4 faiz əvəzinə 40 faizə qədər naməlum maye var idi. Bu ətləri sıxanda maye axırdı. Üstündə isə "halal" nişanı vurulmuşdu. Bu ildən başlayaraq yenə də yenidən "Qualiko" toyuqları Azərbaycana gəlməyə başladı. Bu il İqtisadiyyat Nazirliyi analizlər aparıb. Bu işə bizim təşkilat qarışmayıb. Həmin məhsulların tərkibində mayenin dəfələrlə çox olmasını və insan həyatı üçün təhlükəli maddələrin olmasını müəyyən edib. İşi araşdırmaq üçün İqtisadiyyat Nazirliyi Baş Prokurorluğa müraciət edib. Bizim əlimizdə İqtisadiyyat Nazirliyinin bu barədə rəsmi məktubu var. Əlbəttə, bu bizə ünvanlanmış məktub deyil, Baş Prokurorluğa müraciət olunan məktubdur. Lakin buna baxmayaraq, hazırda həmin toyuqlar satışda var. Azad İstehlakçılar Birliyində də onun nümunələri var".

**Ekspertin sözlərinə görə, "Qualiko" toyuq məhsulları hələ də rayonlarda və paytaxtda müxtəlif ünvanlarda satılmaqda davam edir:** "Bu isə o deməkdir ki, davamlı olaraq Azərbaycana təhlükəli mallar idxal edilir. Biznes qurumlar dövlətin onlar üçün yaratdığı rahat şəraitdən sui-istifadə edirlər və əhalinin hüququnu pozmaqda davam edirlər. Çox təəssüflər olsun ki, İqtisadiyyat Nazirliyi bu sahədə fundamental və səmərəli iş görə bilmir. Bazarda anormal vəziyyət var. Ölkə başçısının Qida Təhlükəsizliyi Agentliyinin yaradılması ilə bağlı fərmanı var. Düşünmürəm ki, bu agentlik yaransa və normal fəaliyyət göstərsə vəziyyət dəyişə bilər. Ancaq acınacaqlı hal odur ki, ölkədə qida təhlükəsizliyi ilə bağlı qanun yoxdur. Qanun olmayan yerdə də cinayət olur".

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

# Şəhid ailələrinə ödəniləcək "qan pulu" yenidən gündəmdə

**Vəkil Aslan İsmayılovun sosial şəbəkədə paylaşdığı status günün əsas müzakirə mövzularından birinə çevrilib. Dövlət məmurlarının uzun illər ərzində dövlət büdcəsindən mənimsədikləri vəsaitlərə toxunan vəkil şəhidlərin ailələrinə ödəniləcək ümumilikdə 180 min manat vəsaitin tapılmamasına qəzəbini ifadə edib.**

**Sitat:** "Keçmiş Metropoliten rəisi Tağı Əhmədovu çoxları kimi mən də xalq malını ən çox qamarlamış məmurlardan biri kimi tanımırdım. Ancaq yenə də mətbuat yazır ki, Tağı Əhmədov fəaliyyəti dövründə 200 milyon manatdan artıq pul mənimsəyib. İllərdir daim gündəmə gətirdiyim Qarabağ müharibəsində həlak olmuş hərbi qulluqçuların ailə üzvlərinə çatacaq 11 min manat isə bu günə qədər də ödənilmir. Uzun müddət bunu qanunda olan boşluqla izah etdilər. Nəhayət, 28 yanvar 2014-cü ildə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi bu məsələdə son nöqtəni qoydu və 11 min manatın ödənilməsinin qanunun tələbi olduğunu göstərdi. 4 ilə yaxın müddət keçsə də həmin məbləğ yenə də ödənilməyib. Həmin pulları alacaq şəhid valideynlərinin də əksəriyyəti artıq vəfat edib, onların balaları da qocalıb, ancaq pullar yenə ödənilməyib. Bu məsələ ilə bağlı qeyri-rəsmi maraqlanmışam və bəlli olan odur ki, Maliyyə Nazirliyi bütün şəhid olmuşların qan pulunu ödəmək üçün bu illər ərzində təxminən 180 mln. manat tapa bilmir. Bu illər ərzində isə məmurlar 180 milyonları yox, milyardları mənimsəyiblər".

Musavat.com olaraq biz də mövzunu yenidən gündəmə gətirib , bu vəsaitlərin nə zaman ödəniləcəyinə işıq salmağa çalışdıq.

**"Qarabağ qaziləri" birliyinin sədri Etimad Əsədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu, çox acınacaqlı məsələdir:** "Şəhid ailələrinə 11 min manat, I qrup müharibə əlillərinə 8800 manat, ikinci qrup əlillərə 6600 manat, üçüncü qrup əlillərə isə 4400 manat verilməli idi. Konstitusiya Məhkəməsinin 2014-cü ildə verdiyi qərara görə, qəti surətdə qətnamədə əksini tapıb ki, həmin vəsait ödənilməlidir. Qısa zaman kəsiyində bunun verilmə qaydası Milli Məclis tərəfindən müəyyənləşdirilməlidir adı ilə Milli Məclisə tövsiyə xarakterli bir bənd oraya atılıb. "Azərsığorta" şirkəti həmin bəndi əsas gətirərək bu pulun ödənilməsini dayandırıb".



**Etimad Əsədov:** "Bu vəsaitə haqqı çatan insanların bir çoxu artıq dünyasını dəyişib"



**Fərəc Quliyev:** "Məsələ Milli Məclisdə dəfələrlə qaldırılıb, sadəcə, hökumət qərarı icra eləməlidir"

**Qarabağ qazisinin sözlərinə görə, Konstitusiya Məhkəməsinin qətnaməsində nəzərdə tutulan "qısa zaman" ifadəsinin üzərindən 4 il ötsə də, heç bir irəliləyiş yoxdur:** "Parlament də bu məsələyə baxmır. Qətnamədə konkret olaraq, "qısa zaman kəsiyində" ifadəsi işlədilib. Bu qərarın verilməsindən 4 il ötüb, düşünürəm ki, bu heç də qısa zaman kəsiyi deyil. Bizim insanlarımız gözləyir. İqtisadi vəziyyət pisləşəndən sonra şəhid ailələrinin və Qarabağ əlillərinin də problemləri artdı. Onlar arasında da kredit borcu olanlar var idi. İndiki haldır. Necə olur ki, Qarabağ müharibəsində ölüb cəhənnəmə gedən ermənilərin ailələrinə hökumət 20 min dollara yaxın pul verir, şikəst olanlara 10 min dollar civarında pul ödənir, ancaq onlardan qat-qat güclü olan Azərbaycanda bu vəsaitlər illərdir ödənilmir".

**E.Əsədovun sözlərinə görə, bu vəsaitə haqqı çatan insanların bir çoxu artıq dünyasını dəyişib:** "2000 min nəfərdən artıq Qarabağ müharibəsi əlili dünyasını dəyişib, şəhid ailələrindən də bir çox insanlar dünyasını dəyişib. Onlar həmin vəsaitləri nə vaxt alacaqdılar? İndi həmin insanların övladları böyüyür, onların qarşıda təhsili, ailə qurmağı var. Bu vəsait onların xeyir işində yardımçı ola bilər. Hazırda həmin ailələrin buna çox böyük ehtiyacı var. Necə ola bilər ki, sənə verilən həyatı gedib Vətən, xalq yolunda qurban verəsən, ancaq dövlət sığorta pulunu ailənə verməyə? Məmurlar və millət vəkilləri bu məsələyə laqeyd yanaşırlar. Bu çox utancverici haldır".

**Milli Məclisin deputatı Fərəc Quliyev isə bu işin artıq Nazirlər Kabinetinin səlahiyyətində olduğunu qeyd etdi:** "Bu məsələ Milli Məclisdə dəfələrlə qaldırılıb, müzakirə olunub. Bununla bağlı qanunvericilik bazası yerindədir. Lazım olan qanunlar da qəbul olunub, hətta məhkəmə qərarları da var. Sadəcə olaraq, Nazirlər Kabineti bu qərarların icrası ilə bağlı işlər görməlidir. Şəhidlər, əlillər, Qarabağ qaziləri ilə bağlı mütəmadi tədbirlər görülməlidir. Hökumət son illərdə yaşanan inflyasiyanı və manatın dəyərdən düşməsini nəzərə alaraq, həmin vəsaitləri indeksləşdirə bilər. Ancaq qanunda belə bir hal nəzərdə tutulmayıb. İlk növbədə həmin vəsaitlərin qaytarılması təmin olunmalıdır".

❑ **Nərgiz LİFTİYEVA**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 152 (6766) 21 iyul 2017



# Kremlin müəmmalı Qarabağ təşəbbüsləri - prezidentlərin görüşü təxirə salınır?

## Münaqişə zonasında eskalasiyanın gücləndiyi zamanda vasitəçi kimi Moskvanın susqunluğu suallar doğurur; **türkiyəli hərbi ekspert:** "Azərbaycan gec-tez Qarabağ münaqişəsini həll edəcək, çünki..."

**Son vaxtlar işğalçı Ermənistanın Naxçıvan və Türkiyə səmtindən narahatlığı artıb. Söhbət təkcə bu "kiçik torpaq"da Azərbaycanla Türkiyənin intensivləşən ortaq hərbi təlimlərindən getmir. Həm də Türkiyə ilə Rusiya arasında hərbi sahədə əməkdaşlığın genişlənməsindən gedir.**

Məlum olduğu kimi, bu ilin aprelində Moskva və Ankara arasında əldə olunan anlaşmaya əsasən, Rusiya Türkiyəyə kredit əsasında ən müasir və modern raketdən müdafiə sistemlərindən sayılan S 400-lər verəcək. Məlumatlara görə, bu sistemlərin hətta iki divizionu Türkiyə ərazisində istehsal edilə bilər. Bundan isə ən çox narahatlıq keçirən Ermənistandır. İşğalçı ölkədə artıq təlaş keçirməyə başlayıblar ki, həmin silahlar ən əvvəl Naxçıvan istiqamətində, Ermənistana qarşı yerləşdirilə bilər.

Türkiyənin gerçəkdən də S 400-lər hesabına nəinki Naxçıvanın, bütövlükdə Azərbaycanın hava məkanının daha yaxşı qorunmasına əlavə töhfə verməsi mümkündür. İddialara görə, S 400-lərin bir divizionunu Ankara Bakıya verə də bilər. Yeri gəlmişkən, ermənilərin daha bir əndişəsi buradan qaynaqlanır.

**Məsələn, o sırada 1 in.am nəşrinin şərhçisi Akop Bədəlyan yazıb:** "S 400 kompleksləri "İsgəndər"lərə qarşı durmaq qabiliyyətindədirmi? Rusiyanın Türkiyəyə satdığı S 400-lər Azərbaycana da məxsus olmayacaq ki? Türkiyə Ermənistandakı "İsgəndər"lərdən qorunmaq üçün Azərbaycana bir divizion S 400 verə bilər. Rusiya Azərbaycana külli miqdarda silah, Ermənistana isə öz "incisini" - çəkindirici "İsgəndər" verib. Məntiq diktə edir ki, Moskva indi də Azərbaycana "İsgəndər"ə qarşı nəsə versin. Və bunu o, Türkiyə vasitəsilə edə bilər. Hər halda, bu barədə düşünməyə və siyasi-diplomatik addımlar atmağa dəyər. Aqressiv düşmənin imkanlarını qiymətləndirməmək olmaz".

***

Bəs belə bir şey mümkündürmü, doğrudanmı qardaş ölkə S 400 sistemlərindən Bakıya sata və ya verə bilər?

**Türkiyəli kontr-admiral və hərbi ekspert, Türkiyə Hərbi-Dəniz Qüvvələrinin sabiq kəşfiyyat rəhbəri Sönər Polat bunu mümkünsüz sayır. Çünki onun sözlərinə görə, hərbi sahədəki əməkdaşlığın və silah ticarətinin şərtlərinə görə, alınan silahlar üçüncü tərəfə ötürülə və ya satıla bilməz.** "Rusiya ilə Türkiyə arasında S 400-lə bağlı imzalanmış anlaşmada da təbii ki, bu bənd var. Eləcə də Türkiyə ABŞ-dan hansısa silahı alırsa, öhdəlik götürür ki, onu üçüncü ölkəyə verə və ya sata bilməz". Musavat.com-un məlumatına görə, bu barədə hərbi ekspert rusdilli vesti.az saytına açıqlamasında deyib.

**Ancaq ekspertin sözlərinə görə, Türkiyə Azərbaycana S 400 sistemləri verməsə belə, yaxud ondan istifadəyə şərait yaratmasa belə, bu, Dağlıq Qarabağ konfliktini həll etməyəcək:** "Azərbaycan bu münaqişəni başqa yollarla həll edə biləcək və ölkənin rəhbərliyi bu yöndə düzgün siyasət yürüdür. Azərbaycan gec-tez bu münaqişəni həll edəcək, çünki o, Rusiyanın mühüm oyunçu olduğu regionun güclü dövlətidir. Azərbaycan həmçinin Dağlıq Qarabağ probleminin nizamlanması prosesində iştirakçıdır və bu proses mütləq Azərbaycanın xeyrinə yekunlaşmağa məhkumdur. Bundan ötrü də bütün şərtlər yaradılır. Azərbaycan Ermənistan üçün ciddi rəqibdir və İrəvan bunu bilir. Odur ki, ermənilərin S 400-lə bağlı açıqlamalarını ciddiyə almağa dəyməz".




***

Qarabağ probleminin həllində isə hələ ki sülh variantı ilə yanaşı, hərb yolu da öz aktuallığını saxlayır. Xüsusən də dinc danışıqların dalana dirəndiyi vaxtda genişmiqyaslı hərbi toqquşma ehtimalı artıb.

Bu arada Rusiya prezidentinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan prezidentləri arasında ilin sonunadək görüş keçiriləcəyi barədə az öncə yayılan xəbərə rəsmi Moskvanın mövqeyi bəlli olub. **"Rusiyanın guya Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil etmək barədə təklif verdiyi uydurmadır". Virtualaz.org xəbər verir ki, belə bəyanatla Rusiya XİN-in informasiya və mətbuat Departamentnin direktorunun müavini Artyom Kojin çıxış edib.**

Yada salaq ki, Moskvanın Azərbaycan və Ermənistan prezidentləri arasında bu ilin payızında görüş təşkil edəcəyi haqda məlumatı bugünlərdə "İzvestiya" qəzeti Rusiya XİN-dəki mənbələrə istinadən yaymışdı. Bildirilirdi ki, Minsk Qrupunun digər həmsədrlərinin, konkret olaraq Fransanı prezidentlərin görüşünü təşkil etmək təşəbbüsü heç bir nəticə verməyib. Beləliklə də prezidentlərin görüşünün təşkili məsələsi ancaq Rusiyanın öhdəsindən gələcəyi məsələyə çevrilib. İndi Rusiya XİN bu məlumatı təkzib edir və belə görünür ki, heç rəsmi Moskvanın da Qarabağ danışıqlarını bərpa etməyə həvəsi yox imiş.

"Biz "İzvestiya" qəzetinin 17 iyul tarixli "Moskva Azərbaycan və Ermənistan liderlərinin görüşünü təşkil edir" başlıqlı məqaləsinə diqqət yetirdik. Qeyd etmək istərdik ki, məqalədə faktiki qeyri-dəqiqliyə yol verilib. Orada Rusiya XİN-dəki mənbəyə istinadən deyilir ki, Rusiya xarici işlər naziri Sergey Lavrovun Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə danışıqlarında, hansı ki, bu danışıqlar guya ATƏT XİN rəhbərlərinin Mauerbaxdakı görüşündə baş tutub, təklif verilib ki, həmin zaqafqaziya dövlətlərinin rəhbərlərinin Moskvada görüşü təşkil edilsin. Bu, həqiqətə uyğun deyil" - Kojin qeyd edib.

Doğrudan da qəribə bəyanatdır. Məntiqlə Rusiya həqiqətən də Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil etmək üçün çalışmırsa, buna səy göstərmirsə, o zaman onun Minsk Qrupunun həmsədri kimi rolu nədən ibarətdir bəs? Axı danışıqlar dayanıb, Ermənistan tərəfi cürbəcür bəhanələr irəli sürərək və hansısa "yerinə yetirilməyən öhdəliklər" barədə bəhs edərək münaqişənin nizamlanmasına dair son vaxtlar diplomatların tez-tez işlətdikləri ifadə ilə desək, substansiv danışıqlardan yayınır.

Rusiya isə hər dəfə bunu vurğulamaqdan çəkinmir ki, münaqişə üzərində faktiki nəzarət, o cümlədən danışıqlar prosesinin təşkili missiyası və hərbi əməliyyatların dayandırılmasında həlledici söz haqqı məhz ona məxsusdur. O zaman Rusiya tərəfi prezidentlərin danışıqları barədə təklif verməyibsə, bu, heç də yaxşı vasitəçilik deyil. Bu, Moskvanın münaqişənin nizamlanması ilə bağlı laqeydliyini göstərmirmi?

Əlavə edək ki, "İzvestiya"dakı məlum xəbərdən öncə Azərbaycan və Ermənistan prezidentlərinin payızda, BMT sessiyası çərçivəsində görüşünün mümkünlüyü haqda informasiya yayılıb. Məlumata görə, tərəflər artıq buna razılıq verib.




# Los-Ancelesdə Ermənistanın işğalçılıq siyasətindən bəhs edən kitab nəşr olunub

**Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğunun təşəbbüsü və dəstəyi ilə Los-Ancelesdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən kitabça nəşr olunub. Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğundan "Trend"ə verilən məlumata görə, kitabçanın nəşrində əsas məqsəd Ermənistanın işğalçılıq siyasəti barədə ABŞ ictimaiyyətinin dəqiq və tutarlı faktlarla məlumatlandırılmasıdır.**

"Nagorno-Karabakh: Background and Facts" (Dağlıq Qarabağ: Tarix və Faktlar) adlı kitabçada Ermənistanın ölkəmizə qarşı apardığı tarixi işğalçılıq və etnik təmizləmə siyasətindən bəhs olunur. Kitabçanın "Azərbaycana qarşı təcavüz" və "Azərbaycan torpaqlarında aparılan etnik təmizləmə" bölmələrində Ermənistan tərəfindən Azərbaycana qarşı həyata keçirilmiş etnik təmizləmə siyasəti faktlarla işıqlandırılır.

Nəşrdə vurğulanır ki, dünya birliyi Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır və ölkəmizin ərazi bütövlüyünü dəstəkləyir. Həmçinin BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından çıxarılmasını tələb edən qətnamələri, ABŞ prezidenti B.Klintonun, vitse-prezidenti D.Çeyninin və ABŞ Dövlət Departamentinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və Ermənistanın işğalçılıq siyasətini pisləyən tarixi bəyanatları və digər hüquqi sənədlər də kitabçada öz əksini tapıb.

Nəşrdə xüsusi bir bölmə isə Xocalı soyqırımına həsr olunub.

YENİ MÜSAVAT
N 152 (6766) 21 iyul 2017

# Problemli kreditlər rekord həddə çatıb

## Əkrəm Həsənov: "Problemli kreditlərin əksəriyyəti əliəyriliklə verilmiş kreditlərdir"

**2017-ci il mayın 1-dək 1 739,8 milyon manat kreditin ödəmə vaxtı keçib. Mərkəzi Bankdan verilən məlumata görə, ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 11,8 faizini təşkil edib. Ümumilikdə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə problemli kreditlər 14,9 faiz artıb.**

Bank sektorunu çökdürən əsas amillərdin biri olan problemli kreditlərin həcminin ildən-ilə artması cəmiyyəti narahat etsə də, ötən iki ildə hökumət tərəfindən heç bir ciddi addım atılmayıb. Bunun nəticəsində demək olar ki, əksər banklar müflis duruma düşüb, kredit verilişi dayandırılıb, vətəndaşlar banklar qarşısında borclu qalıblar. İqtisadçı ekspertlər isə hesab edir ki, problemli kreditlərin həcmi1,7 milyard manatdan daha çoxdur.

**İqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov da "Yeni Müsavat"a açıqlamasında vurğuladı ki, problemli kreditlərin real həcmi ən azı göstərilən rəqəmdən iki dəfə çoxdur:** "Beynəlxalq reytinq agentlikləri də bunu daim vurğulayır və elə məhz buna görə də banklarımızın reytinqini endirməyə davam edir. Sadəcə, banklarımız real həcmi gizlədir. Bunun iki səbəbi var. Problemli kreditlər üzrə ehtiyatlar saxlamaq lazımdır, bu isə xərcdir və bankların kapitalını azaldır, nəticədə prudensial tələblər *(yəni qanunun və Palatanın banklara qoyduğu normativ göstəricilər)* pozulur. Digər tərəfdən, problemli kreditlərin yüksək olması bankların imicinə mənfi təsir göstərir: belə çıxır ki, bank ona pulunu etibar etmiş müştərilərin vəsaitini qeyri-qənaətbəxş yerləşdirir *(kredit verir)* və müflis olma ehtimalı artır. Təbii, bu da müştəriləri qaçıra bilər. Onsuz da banklarımızdakı əmanətlərin həcmi 2 ildən çoxdur ki, azalan xətlə gedir. Hər bir halda problemli kreditlərin həcmi getdikcə daha çox artır".

### Problemli kreditlərin həcmi niyə artır?

**Ə.Həsənovun fikrincə, problemli kreditlərin həcminin artmasının 2 əsas səbəbi var:** "Əvvəla, ölkədə iqtisadi böhran yaşanır. Gəlirlər azaldığı üçün kreditləri ödəmək getdikcə daha da çətinləşir. Digər tərəfdən, dollar kreditləri problemi hələ də həllini tapmayıb. Hətta indiyədək borcunu birtəhər ödəyən də artıq ödəmək istəmir və bankdan güzəşt tələb edir. Başqa sözlə, dollarla borcu olanlar devalvasiyanın ağır nəticəsini bankla bölüşmək istəyir. Məsələn, deyir ki, mən krediti alanda məzənnə 0,78 idi, indi 1,7 olub, heç olmasa 1,05 məzənnəsi ilə ödəyim. Amma təəssüf ki, bankların əksəriyyəti məzənnə məsələsində ciddi güzəştə getmir və bu da ödəməyənlərin sayını artırır".

### Nə etmək lazımdır?

Əkrəm Həsənov 3 addımın ardıcıl olaraq atılmasını təcili və zəruri hesab etdi: "Əvvəla, bütün banklarda obyektiv yoxlama aparılmalıdır. Müflis bankların taleyi göstərdi ki, banklar bərbad kredit siyasətinin qurbanı olub. Problemli kreditlərin əksəriyyəti müəyyən sahibkarlara bilərəkdən bank üçün əlverişsiz şərtlərlə verilib. Həmin şəxslər çox güman ki, ya bank



sahibləri və inzibatçılarına yaxın şəxslərdir, ya da rüşvət nəticəsində daha asan şərtlərlə alanlardır. Bu məsələ də araşdırılmalıdır. Həmin kreditləri isə bank sahibləri və inzibatçıları verib, kənar auditor və Mərkəzi Bank isə buna nədənsə göz yumub. Yoxlama nəticəsində bu hallar aşkar edilməli və təqsirkarlar müyyən edilməli və kreditlərin dərhal qaytarılması tələb olunmalıdır. Əks halda, cinayət işi açılmalıdır. Bu addımın atılması yəqin ki, qanunda da müəyyən dəyişikliklərin edilməsini tələb edəcək. Belə ki, hesab edirəm ki, kreditlər qayıtsa, cinayət işi açılmamalıdır. Yəni daha çevik olmalıyıq: əsas pulun qayıtmasıdır, kiminsə cəzalandırılması deyil. Bu ilk addım nəticəsində banklara xeyli vəsait qayıdacaq".

**İqtisadçı vurğuladı ki, problemli kreditlərin əksəriyyəti elə əliəyriliklə verilmiş kreditlərdir:** "Bu pulların qaytması nəticəsində bankların çoxunu xilas etmək olar və onların hesabına digər iki addımı da atmaq olar. İkinci addım fakitiki iflasa uğramış şəxslərin məhkəmə tərəfindən müflis elan olunması və onların borclarının silinməsidir. Bu da normal haldır. Kimsə borcunu ödəyə bilmirsə, borcu bağışlanmalıdır. Sivil dünyada bu belədir. Amma eyni zamanda müflis şəxslərə dair qanun müəyyən müvəqqəti məhdudiyyətlər təsbit etməlidir: hansısa vəzifələri tutmaq və s. Nəhayət, üçüncü addım dollar kreditləri olanlara məzənnə güzəştlərinin tətbiqindən ibarətdir. Bundan sonra həmin şəxslər də borclarını ödəyə biləcək. Təbii, bu addımların nəticəsində hansısa bankların vəziyyəti yenə də çətin qala bilər. Bu halda dövlət onlara yardım edə bilər. Xüsusilə vurğulayıram ki, dövlət yalnız bütün bu addımlardan sonra banklara yardım etməlidir. Bütün bu işlər üçün maliyyə ombudsmanı institutunun da təsisi zəruridir ki, kreditorlarla borclular arasında vasitəçi qurum olsun".

### Niyə hökumət bu addımları atmır?

**İqtisadçı sualımıza cavab olaraq təəssüflə bildirdi ki, burada subyektiv amillər daha çoxdur:** "Əvvəla, maliyyə sistemimizi idarə edənlərin banklarla, bank sahibləri və inzibatçıları ilə sıx əlaqələri var. Necə deyərlər, kəsdikləri "duz-çörəyin" üstündən keçə bilmirlər. Digər tərəfdən, ciddi kadr problemi var. Böhran göstərdi ki, maliyyə sistemimizi idarə edənlərin əksəriyyəti yaxşı günün inzibatçısı imiş və elə dərin savad və səriştələri yoxdur. Çoxunu yaxşı tanıdığım üçün bunu deyə bilərəm. Bəziləri elementar şeyləri belə bilmirlər. Nəhayət, maliyyə sahəsi üzrə işləyən dövlət qurumları arasında ciddi ziddiyyətlər və konfliktlər var. Hətta bəzi qurumların öz daxilində belə bu hallar var. Məsələn, Palatanın daxilində Rüfət Aslanlının rəhbərlik etdiyi Direktorlar Şurası ilə İbrahim Alışovun başçılıq etdiyi İdarə Heyəti arasında ziddiyyət var. Belə şəraitdə konsturktiv idarəçilik çətindir. Ümumiyyətlə, ən azı hökumətin iqtisadi blokuna vahid rəhbərlik lazımdır ki, hərəsi öz havasını oynamasın".

❑ **Nərgiz LİFTİYEVA**

# Benzin idxalı rüsumdan azad edildi, amma qiymət enməyəcək

## Ekspert deyir ki, Neftayırma Zavodu təmirə bağlandığından idxal olunan neftin aksiz vergisindən azad edilməsi gündəmə gəlib

**Hökumət 3 aylıq müddətə benzin üçün alınan aksiz vergisini 200 manatdan 1 manata endirib.**

Neft Araşdırmaları **Mərkəzinin rəhbəri İlham Şaban** bildirdi ki, hazırda Heydər Əliyev adına Neftayırma Zavodu cari təmirə bağlandığından idxal olunan neftin aksiz vergisindən azad edilməsi gündəmə gəlib: "Avqust ayının əvvəlində zavod cari təmirə bağlanacaq. Həmin müddətə qədər ehtiyatlar yığılacaq. Təmir işlərinin davam edəcəyi müddət ərzində ölkənin tələbatını ödəmək üçün benzin idxal olunacaq. Adətən cari təmir 3 həftə müddətində yekunlaşır. Buna görə də heç vaxt həmin müddətdə ölkəyə xaricdən benzin gətirilmirdi. Həmin müddət ərzində anbarlarda yığılmış benzin bizim 21 günlük ehtiyacımızı təmin edirdi. İkinci bir məsələ isə odur ki, əvvəllər bu qədər avtomobil yox idi. Avtomobillərin sayı 1 milyona qədər idi. İndi isə istifadədə avtomobillərin sayı 1,2 milyondur. Yəni ölkədə yanacağa olan tələbat artıb".

**İlham Şabanın sözlərinə görə, modernizasiya işləri daha çox vaxt tələb etdiyi üçün idxal oluna benzinin aksiz vergisindən azad olunması qaçılmaz olub:** "Başqa bir məsələ isə burdur ki, ötən ildən başlayaraq Heydər Əliyev adına neftayırma zavodunda modernizasiya işləri başlayıb. Zavod cari təmirə dayananda əsas işləri də həmin zaman kəsimində görməyə çalışırlar. Modernizasiya bir qədər uzun zaman tələb edir. Bu bir ay da ola bilər, daha çox da ola bilər. Ona görə də Nazirlər Kabineti ilk dəfə ötən il belə bir qərar verdi. Həmin müddətdə ölkəyə 25-30 milyon ton benzin idxal olunmuşdu. Həmin müddətdə aksiz vergisi ləğv olunduğundan idxal olunan benzinin qiyməti dəyişmədi. İndi yenidən Nazirlər Kabineti oxşar qərar qəbul edib ki, zavodun təmirdə olduğu və benzinin xaricdən gətirildiyi müddətdə qiymətlər dəyişməsin. Biz topdansatış bazası olaraq qonşu Gürcüstan bazarından Ruminiya benzini alırıq. Orada topdansatış qiyməti ilə təxminən Aİ 92 markalı benzinin 1 litri bizim pulla 86 qəpiyə başa gəlir. Nəqliyyat xərclərini də bunun üzərinə əlavə etsək, gəlib 1 manatdan çox edir. Ona görə də aksiz vergisini ləğv ediblər ki, idxal olunan benzinin qiyməti yerli istehsal olunan benzinlə eyni qalsın. Həmin qərar bu zərurətdən yaranıb. Zavod yenidən fəaliyyətə başlayandan sonra artıq idxal benzininə ehtiyac qalmayacaq, buna görə də, aksiz vergisi əvvəlki kimi yenidən bərpa olunacaq".



**İqtisadçı ekspert Natiq Cəfərli isə qeyd etdi ki, "Aİ-92" markalı yanacağın qiyməti Tarif Şurası tərəfindən tənzimləndiyi üçün aksiz vergisinin ləğvi yanacağın qiymətinə heç bir təsir etməyəcək:** "Tarif Şurasının müvafiq qərarı olmalıdır ki, qiymət aşağı düşsün və aşağı düşəcəyinə də inanmıram. 92 markalı benzinin dünyada istehsalı da demək olar ki, yoxdur. Bu benzin əsasən Rusiyada istehsal edilir. Hazırda, yəni Aİ-92-nin 90 qəpiyə olduğu vəziyyətdə, indiki məzənnə ilə Rusiyadan benzini alıb gətirib, Azərbaycanda satmaq çox sərfəli bir hala gəlib. Ölkəyə benzin idxal edən SOCAR-treyder çox güman ki, Rusiyadan Aİ-92 alaraq bazara çıxaracaq. "Premium" markalı benzini də SOCAR-treyder gətirir. Bu da SOCAR-a çox böyük gəlir gətirəcək. Bu qərarın qəbul edilməsi SOCAR-a böyük dövlət dəstəyidir. Çünki Rusiyadan hazırda benzinin ölkəyə gətirilməsi 55 qəpiyə başa gəlir. Satışı 90 qəpikdən nəzərə alsaq, bu da kifayət qədər qazanc deməkdir. Hələlik bu qərar 90 günlük verilib. Düşünürəm ki, bu qərar uğurlu olsa və SOCAR-a kifayət qədər gəlir gətirsə, növbəti dəfə bu qərar daha uzunmüddətli verilə bilər".

**N.Cəfərli də vurğuladı ki, bu qərar neftayırma zavodunda baş tutacaq təmir işləri səbəbindən yerli istehsalın məhdudlaşması və daxili tələbatın ödənilməsi səbəbindən verilib.**

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 152 (6766) 21 iyul 2017




Cümə söhbətləri

**Bismilləhir-Rahmənir-Rahim! Günahlar - bir xəstəlikdir və xəstəliyin müalicəsi olduğu kimi, günah mərəzindən də qurtulmaq mümkündür. Günahların da müalicəsi vardır və Əziz Rəbbimiz, bir mehriban təbib olaraq, bunun müalicəsi qismində müəyyən əməllərin görülməsini məsləhət bilmişdi. Uca Allahın tövsiyə etdiyi, Onun Rəsulunun (s) və Məsum İmamların (ə) səsləndirdikləri bu nurani resept - tövbədir. Zahirdə kiçik, çox vaxt almayan bu əməl, fövqəl təsir gücünə malikdir.**

# Ən yaxşı şərik

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



## Sağalmaq fürsəti

Bir sağalmaq fürsətidir bu zikrlər... Zira, həyat yolunu xəstə halda, qəlbi günahların, xətaların pas və hislərindən təmizləməmiş halda yaşayan insan, İlahi nemət süfrəsindən faydalana bilməyəcək. Necə ki, xəstə insan ləziz yeməyin dadını bilməz, eləcə də qəlbi günahın vurduğu mənəvi yaralarla dolu olan insan Allah Təalanın İlahi nemət süfrəsindən bəhrə apara bilməz. Və nəinki təkcə bəhrə apara bilməz, hətta bu nemətlər onu darıxdırar, narahat edər. Necə ki, xəstə insan hərəkət edəndə, danışanda ləzzət almır, əksinə, əziyyət çəkir, eləcə də günahdan təmizlənməmiş insan dünya həyatından tam bəhrə apara bilmir. Odur ki, insan, təqdim olunan fürsətdən yararlanaraq, gözünü, qulağını, dilini - bütün əzalarını və ümumən vücudunu gərək müalicə etsin, optimal sağlam hala gətirib çıxarsın ki, onun üçün buraxılmış həyat fürsətindən tam surətdə faydalana bilsin.

Müəyyən etdik ki, qəlb xəstəliklərinin əlacı tövbədədir. Tövbə - qayıdış deməkdir. İnsanın özünə qayıdışı, öz vücuduna qayıdışı. Qəflətdən ayıqlığa tərəf qayıdışdır tövbə. İnsanın optimal duruma qayıdışıdır tövbə. Anomaliyalardan normaya qayıdışdır tövbə. İfrat-təfritdən mötədilliyə qayıdışdır tövbə.

## Tövbə yalnız dildə olmur

Tövbə tək tələffüz deyil. Yalnızca dilin və səs tellərinin iştirakıyla müəyyən ləfzin meydana gəlməsi deyil. Başqa sözlə, təkcə zahiri təzahürlərlə kifayətlənmir tövbə. Allah o gündən saxlasın insanı ki, dinin, inancın təqdim etdikləri tövsiyələri zahirdə göstərməklə kifayətlənsin, əməlində təzahür etməsin. Allah eləməsin ki, İslam dini insan üçün bir terminoloji ləfzlər olaraq kifayətləndirilsin. Yalnız sözdə, danışıqda müəyyən istilahlarla təzahür etsin insanın inancı.

Şübhəsizdir ki, insanda yalnız məlumatların olması kifayət etmir. İnsan bilgiləri əməldən yaşatmalıdır. Bilgilər, məlumatlar insanın əməllərində təzahür tapdıqda, bunların mənası var.

Tövbə də elədir. Dillə iqrar etməklə iş bitmir. İnsanın ruhiyyəsində iz buraxmalıdır onun tövbəsi. Bir yeni təravətlilik, bir yeni nəfəs gəlməlidir insanın durumuna. Və ən əsası - bu məsələnin təntənəsi gərək itməsin, insan üçün adiləşməsin bu mövzular. Məlumat və bilgilər çoxala bilər insanda. Amma əsaslı bir dəyişiklik olmasa onda, boş yaşamış olur.

Xoş olsun o xəstənin halına ki, öz xəstəliyini bilir, iqrar edir, dərk edir və müalicə olunmaq istəyir.

Bir haşiyə də çıxmaq zəruridir ki, toplumda tövbənin yanlış interpritasiyası vardır. İnsanlar çox vaxt düşünürlər ki, Inə etmişəm ki, tövbə də edim? Adam öldürməmişəm, oğurluq etməmişəm, heç kimə pislik etməmişəm. Qoy onlar tövbə etsin».

Belə düşüncə tərzi günahın və tövbənin mahiyyətini bilməməkdən irəli gəlir. İnsanın ibadi durumunda əskiklərin olması, naşükürlük, qeybət, yalan, söyüş, sui-zənn kimi günahlar, yaxud baxışla, dillə, fikirlə günahlara yol verilməsi kimi mənfiliklər çoxları üçün adi görünə bilsə də, əslində yaranmışların əşrəfi olan insanın özünə zülm etməsi deməkdir. Bu əyinti və mənfiliklərin qəlbə vurduğu yaraları sağaltmağın yolu da məhz tövbədən keçir.

## "Xəstəlik kitabçası"

Bu mövzuda bir mühüm nöqtəni vurğulamaq gərəkdir ki, insan yalnız xəstəliyini bildiyi halda onu müalicə edə bilər. Xəstəliyini bilməsə, onun əlacı necə ola bilər? Sağlamlığının qeydinə qalan bir insanın misalında olduğu kimi. O, xəstəlik simptomlarını hiss edəndə, dəqiq diaqnoz qoyulmasının qeydinə qalır, sonra axtarış apararaq, müalicə almaq üçün münasib həkim axtarır, sonrakı mərhələdə effektiv müalicə məkanı və üsullarından yararlanaraq, xəstəliyindən əlac tapmağa çalışır.

Amma o kəs ki sağlamlığının qeydinə qalmır, öz sağlıq durumuna qarşı laqeyddir - o, xəstəliyin simptomlarını hiss etdikdə "boş şeydir, keçib gedər" mülahizələri əsasında reaksiya verir. Nəticədə xəstəlik inkişaf edir, kök salır, fəsadları dərinləşir və nəticədə sağalmaz duruma gəlib çata bilir.

Beləliklə, insan ilk əvvəl xəstəliyini dərk etməlidir ki, onun müalicəsi ilə məşğul ola bilsin. Xəstəliyini inkar edən insanın müalicəsi də mümkünsüzdür.

Günahlar da belədir. İnsan özünü günahdan xali bilirsə, onun sağalması müşkül məsələdir.

Bir mömin barədə maraqlı bir söhbət edirlər. Həmin insan Vətən uğrunda şəhid olub. Dostları deyir ki, həmin mömінin bir kitabçası var idi, gün ərzində yol verdiyi xətaları həmin kitabçaya qeyd edirdi. Qəzəbləndiyi anları, səbirsizlik etdiyi, narahat olduğu məqamları qeyd edərdi. Sonra bu səhv və xətaları təhlil edib, müəyyən edirdi ki, bunlar hansı xasiyyətin məhsuludur və həmin xasiyyəti islah etməyə çalışırdı. Kiminləsə də bir qədər kobud olsaydı, bir balaca yanlışlığa yol versəydi, həmin kitabçası karına gələrdi. Heç kəsin haqqını qaytarmağı, üzr istəməyi unutmazdı. Beləcə, onun "xəstəlik kitabçası" daima bu insanın dadına gələrdi, onu süstləşməyə qoymazdı. Bir özü bilərdi dərdini, bir də Rəbbi. Amma boş buraxmazdı.

## Günahı etiraf etmək - sağalmağn şərtidir

Beləliklə, hər şeydən əvvəl insan öz xəstəliyini özü hiss etməlidir, vücudən dərk etməlidir. Və öz günahını Allahına etiraf edən günahkar, islah olmaq yönündə ilk addımın atır. Həzrət Əli (ə) buyurur: **"Öz günahını etiraf edən günahkar, öz əməli ilə öyünən itaətkardan daha yaxşıdır".**

Tutalım, bir nəfər itaətkardır. Amma yaxşı əməli ilə öyünməyi var. Digəri isə günahkardır, amma günahlarını etiraf edir. Bilir ki, günah edib, bilir pis iş görüb. İslamın məntiqində günahkarın öz günahını bilib, bunu Allahı qarşısında etiraf etməsi, özünə bu barədə hesabat verməsi daha üstündür, nəinki yaxşı əməli ilə öyünən itaətkarın vəziyyəti. Birincisi peşmançılıq durumundadır, heyfsilənir əməlindən. İkincisi isə özündən razı bir vəziyyətdədir. Dinimizin məntiqində birincinin potensial imkanları daha üstündür. O, günah etməməyə daha yaxındır. Biri xəstədir, amma xəstəliyini anlayır, dərk edir. O biri isə özünü sağlam sanır, yaxınlaşan xəstəlikdən xəbəri yoxdur. Xəstəliyindən xəbəri olan müalicəyə can atacaq, xəbərsiz isə özünü arxayın hesab edib, tənəzzül edəcək.

İmam Muhəmməd Baqir (ə) buyurur: **"Vallah, günahı etiraf edən şəxsdən başqa heç bir kəs ondan qurtulmaz".**

Qurtuluşun yolu tövbədən keçir. Tövbə etmək üçün insan hansı günahı etdiyinin fərqinə varmalıdır. Bu günahı tanısa, ona bələd olsa - müalicəyə can atar, qurtuluş tapar. Xəstə gərək xəstəliyini anlaya ki, müalicəyə can atsın və şəfa tapsın.

Başqa yerdə İmam Muhəmməd Baqir (ə) buyurur: **"Vallah, Allah Təala insanlardan yalnız 2 şey istəyir: nemətlərin daha da artması üçün onlara görə şükür etmələrini və günahların bağışlanması üçün onların etiraf edilməsini".**

Öncəki bəhslərimizdə ona toxunduq ki, nemətə görə şükrün ən kamil forması - həmin neməti Uca Allahın müəyyən etdiyi yerdə sərf etməkdir. İndi bu məqama işarə olunur və bildirilir ki, insanın şükür etməyi həm də həmin nemətlərin artırılmasının amilidir. Digər tərəfdən, bağışlanmanın şərti kimi, günahların etiraf edilməsi məsələsi vurğulanır. Belə ki, insan günahını Allah qarşısında iqrar etməsə, nədən bağışlanmaq istəyəcək və nəyə görə bağışlanacaq?!

## Tövbə edənin nişanələri

İnsan necə bilsin ki, tövbə edib, ya etməyib? Necə bilsin ki, sağalıb, ya yox? Necə bilsin ki, tövbələri qəbul olunub, ya yox? Dinimiz bu vacib sualları dəqiqliklə cavablandırır. İslam Peyğəmbəri (s) buyurur: **"Tövbə etmiş şəxsin 4 nişanəsi var:**

**- əməli yalnız Allaha görə xalisləşdirmək;**

**- batili tərk etmək;**

**- haqqa bağlılıq və**

**və yaxşılığa hərislik".**

Gördüyümüz kimi, sağalmanın, bağışlanmanın dəqiq əlamətləri təqdim olunmuşdur. Əgər insan əməllərini yalnız Allaha görə xalisləşdiribsə, demək sağalma elementlərindən birinə sahib olub. İkincisi: hər bir batili tərk etmək - İstər aşkar günah əməl olsun, istərsə də hər hansı mənasız, faydasız, ziyanlı bir iş. Bu əlaqədə böyük əxlaq ustadlarından birinin tövsiyələrini xatırlayaq. Buyurur: **"İstəyirsinizsə dünyanız islah olsun - namazı islah edin. İstəyirsinizsə namazınız islah olsun - namazda xuşu halında olun, namazın içində olun. İstəyirsiniz namazda xuşu halında olasınız - ləhvi *(hər mənasız, hər səmərəsiz şeyi)* tərk edin".**

İnsan boş, mənasız şeyləri tərk etsə, qəlbi hazır olar namazda Allahla olmağa. Qəlb insanda birdir - nə ilə doldursan, onunla da dolu olacaq. Başqa şeyə yer qalmayacaq. Boş şeylərlə doldursa insan qəlbini, orada Allahla münacata yer qalmaz ki!

Düzgün əməlin islahedici mahiyyəti barədə dinimizdə çoxluca tövsiyələr var. Məsələn, sədəqə vermək kimi. Sədəqə verən insanı Allah Təala Özü tərbiyələndirər. Onun qəlbini Allah Təala Özü gözəlliklə doldurar. Axı insanın səyləri müqabilində Allah Təalanın bir inayəti olmalıdır ki, həmin iş bərəkətlənsin. Allahın nəzəri olmasa o işdə, baş tutması müşküldür.

## Əməli xalisləşdirmək

Əməlin ixlası və batili tərk etməklə yanaşı, mübarək hədisdə haqqa bağlılıq və yaxşılığa hərislik göstərilir. Haqqa bağlılıq odur ki, insan hər bir vəziyyətində haqqın və ədalətin yanında olsun, nahaqqa qol qoymasın. Yaxşılığa canatmaya gəldikdə, görürük ki, bu, o dərəcədə təhdir olunur ki, "yaxşılığa hərislik" kimi formulə olunur. Yəni harada yaxşılıq görürsən, oraya can at. Nə yaxşı bir iş var - onun dalınca get. İnsanlar var ki, qibtə olunacaq dərəcədə yaxşılığa can atırlar. Harada Allaha xidmət var, bu insanlar orada birinci cərgədədirlər.

Təəssüflər olsun ki, qloballaşan mühit, dünyanın bu gün təqdim etdiyi dəyərlər buna əks çıxır. İnsanlar yaxşılıqlarda yarışmırlar, "praqmatik" adlandırdıqları, əslində real praqmatizmdən, həqiqi xeyirdən uzaq mövzularda mücadiləyə girişirlər. Hədəf qalır bir tərəfdə, vasitələrə sahib olmaq üçün ölüm-dirim mübarizəsi gedir. Əxlaqda, təvazökarlıqda, xeyriyyəçilikdə deyil, ötəri və bihudə işlərdə yarışır insanlar...

Toxunduğumuz elementlərdən birincisi olan, sağalmağın əlaməti olaraq əməli xalisləşdirməklə bağlı Həzrət Əli (ə) buyurur: **"Əməli xalisləşdirmək - əməlin özünü yerinə yetirməkdən çətindir".**

Xalisləşdirmə özü də bir əməldir. İnsan hər hansı suyu içmir ki. Bulanıq suyu əvvəl filtrdən keçirir, xalis duruma gətirir, sonra daxilə qəbul edir. Əməl də elədir. İnsan əməli filtrdən elə keçirməlidir ki, xalis bir duruma gəlsin.

Digər hədisdə İmam Səccad (ə) buyurur: **"Əməl xalislənənədək onda sabitqədəm olmaq - əməlin özündən çətindir".**

## Şərik qoşanın əməli qəbul edilməz

Xalis əməlin azı, qarışıq əməlin çoxluğundan daha üstündür. İslam Peyğəmbəri (s) buyurur: **"Qəlbini xalis et, az iş sənə kifayət edər".**

Uca Allah qarışığı olan, ixlaslı olmayan əməlləri qəbul etmir. Ancaq təmiz əməlləri, xalis əməlləri Allah Təalaya təqdim etmək olar. İmam Cəfər Sadiqdən (ə) nəql edirlər: **"Allah Təala buyurmuşdur: "Mən - ən yaxşı şərikəm. Öz əməlində Mənə şərik qoşan kimsənin, yalnız xalis mənim üçün olanlardan başqa heç bir əməlini qəbul etmərəm"".**

Adətən şəriklər arasında pay bölgüsü ilə bağlı müəyyən hesablamalar, dəqiqləşdirmələr olur. Qarşılıqlı tutuşdururlar öz nəticələrini. Amma Allah Təala bildirir ki, azacıq qarışığı olan əməli, yəni çoxu Allah üçün və bir də kiçicik də olsa kimin və ya nəyin üçünsə görülən əməlin hamısından imtina edir. Ancaq xalis əməldədir nicat. Balaca qarışığa yol verən - riya etmişdir. Və ixlasla olan əməl, nə qədər az olsa belə, qarışığı olan və zahirdə gözəl olan çox əməldən yaxşıdır.

İxlasa gətirən durumla bağlı dinimizin gözəl tövsiyələri vardır. Rəsuli-Əkrəm (s) buyurur: **"Əgər bəndə 40 sübh Allaha ixlasla ibadət edərsə, hikmət çeşmələri onun qəlbindən dilinə axar".**

Mübarək İslam dini daim vurğulayır ki, ixlaslı əməl nəticə etibarilə insanın axirətini abadlaşdırmaqla yanaşı, dünyasını da düzəldir. İnsan ora-bura vurnuxur, işlərinə əncam axtarır, amma nə qədər ki, öz həqiqi durumuna qayıtmır, onun işlərinin kamil durumu baş tutmur. Rəsuli-Əkrəmdən (s) nəql edirlər: **"Allah Təala buyurur: "Bəndəmin qəlbinə baxıb, ixlasla və Mənim razılığımı qazanmaq üçün Mənə ibadət etdiyini görəndə, onun işlərinin nizamını və tədbirini öz öhdəmə götürərəm"".**

**Uca Allah cəmimizi Ona ixlasla ibadət edənlərdən qərar versin! Amin!**

YENİ MÜSAVAT
N 152 (6766) 21 iyul 2017



# Bakı-Sumqayıt marşrutu: "ölüm avtobusları" hələ də iş başındadır

Bu xətdəki mikroavtobusların əksəriyyəti bərbad durumdadır; **Bakı Nəqliyyat Agentliyinin sözçüsü:** "Onların fəaliyyəti qanunsuzdur, sərnişinlərin həyatına birbaşa təhlükədir..."

**Bakı-Sumqayıt yolunda 6 tələbənin ölümü ilə nəticələnən qəzadan nə sürücülər, nə də sərnişinlər bir nəticə çıxarmayıb. "20 Yanvar" metro stansiyası ətrafında qeyri-qanuni fəaliyyət göstərən onlarla sərnişin avtobusu yenə işindədir. Həmin sürücüləri kiminsə həyatı, təhlükəsizliyi maraqlandırmır. Əsas məqsədləri pul qazanmaqdır.**

DYP və PPX əməkdaşları dəfələrlə Bakıdan Sumqayıta qanunsuz işləyən marşrut sürücülərinə qarşı reydlər keçirsə də, bunun qarşısını tamamilə almaq mümkün olmayıb. Müşahidələrimiz zamanı artıq istifadəyə yararsız olan marşrut avtobuslarının "20 Yanvar" metro stansiyası ətrafında sərnişin yığdıqlarının şahidi olduq. Qeyri-qanuni xidmət göstərən Bakı-Sumqayıt marşrutlarının əksəriyyəti bərbad durumdadır. Mikroavtobuslar isə necə deyərlər, tökülüb-itir.

**Hər gün sərnişinləri ölüm təhlükəsi ilə üz-üzə qoyan, yolda sürət həddini aşıb bir-biri ilə yarışa girən sürücülərlə sərnişin qismində həmsöhbət olduq. 1997-ci il istehsalı olan "Ford" markalı sərnişin avtobusunun sürücüsü gizli-gizli işlədiklərini etiraf etdi:** "İş yoxdu, brat. Olsa da, qoymurlar işləməyə. Elə bilirsən mənə xoşdu günün altında durub ""Sumqayıta 60 qəpik" qışqırmaq? Evdə 3 uşaq məndən çörək gözləyir. İçəri girəndə əlimə baxırlar. Bir sürücü ehtiyatsızlıq edib, 5 nəfəri ölümə aparıb. Elə bu səbəbdən də bizim işimiz çətinləşib. DYP ilə gizlənqaç oynayırıq. İllərdir bu xətt üzrə işləyirəm, bir dəfə də olsun qəza etməmişəm".

**"20 Yanvar" metro stansiyası ətrafında işıqlarını yandırıb, mikroavtobus sürücülərini qovan polis əməkdaşlarının da fikirlərini öyrəndik:** "Özünüz də görürsüz ki, bayaqdan qanunsuz işləyən Bakı-Sumqayıt marşrutlarına sərnişin götürməyə imkan vermirik. Avtobuslar yalnız "Avtovağzal" ərazisindən işləyə bilərlər. Onların fəaliyyəti qeyri-qanuni hesab olunur. Buradan sərnişin daşıyan sürücülərə müvafiq cərimələr tətbiq olunur. Çətin olsa da, bu problemin öhdəsindən gəlməyə çalışırıq".

**Qeyd edək ki, Bakı-Sumqayıt xətti üzrə çalışan mikroavtobusların bir neçəsi adıçəkilən metro stansiyasının ətrafında olan binaların həyətində və ara küçələrdə dayanıb sərnişin götürür. Bu məlumatı bizə adının çəkilməsini istəməyən taksi sürücüsü verdi:** "Biləcəri-Xırdalan avtobusları istiqamətində olan binaların həyətlərində qeyri-qanuni işləyən mikroavtobuslar dayanır. Metrostansiyanın ətrafındakı sərnişinləri sürücülərin köməkçisi ora yola salır. Binaların həyətinə piyada 100-150 metr məsafə olduğundan, 60 qəpiklik yolu





50 qəpiyə getmək üçün sərnişinlər bu əziyyətə qatlaşırlar. Bu mikroavtobuslarda gediş haqqı ucuz olduğundan sərnişinlər "Avtovağzal" kompleksinə getmirlər. Sürücülərin bu manevri sərnişinləri cəlb edir. Lakin həyatları üçün nə qədər təhlükəli addım atdıqlarının fərqində deyillər".

**Məsələ ilə bağlı Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətinin rəhbəri Mais Ağayevlə əlaqə saxladıq. O, Bakı-Sumqayıt arasında işləyən mikroavtobusların sərnişindaşımada ciddi təhlükə yaratdığını bildirdi:** "Bu nəqliyyat vasitələri əslində yükdaşıma üçün nəzərdə tutulsa da, sonradan edilən konstruksiya dəyişikliyi sayəsində bunlarla sərnişin daşınır. Lakin birmənalı olaraq qanunsuzdur, sərnişinlərin həyatı üçün birbaşa təhlükədir. Sumqayıt yolunda baş verən qəza bunun əyani sübutudur. Bu gün paytaxtın marşrut şəbəkəsində bu tip nəqliyyat vasitələri ilə sərnişin daşınması qadağan edilib. Lakin bizim paytaxt ərazisində apardığımız müşahidələrə, sərnişinlərin çoxsaylı müraciətlərinə əsasən deyə bilərik ki, bu gün hələ də bu nəqliyyat vasitələri ilə qanunsuz sərnişindaşıma ilə məşğul olanlar var. Metronun "Əhmədli", "Koroğlu", "Qara Qarayev" "20 Yanvar" stansiyalarının ətrafında da belə nəqliyyat vasitəsi ilə sərnişin daşınmasına rast gəlmək mümkündür. Bundan əlavə, müxtəlif kənd və qəsəbələrdə bələdiyyə avtobusu adı ilə də yararsız, heç bir standarta uyğun olmayan bu tip nəqliyyat vasitəsilə sərnişindaşıma halları mövcuddur".

**M.Ağayev məsələnin ciddiliyini nəzərə alaraq və Sumqayıt yolunda baş verən ağır qəzanın təkrarlanmaması üçün səlahiyyətləri çərçivəsində bütün zəruri addımları atdıqlarını bildirdi:** "Biz keçən həftə mikroavtobusla qanunsuz fəaliyyət göstərən bir nəfər sürücünü BNA-ya çağırdıq. Onun sənədləri tədbir görülməsi üçün müvafiq qurumlara göndərildi. Lakin bu işdə təkcə bir qurumun tədbir görməsi kifayət etmir. Müvafiq dövlət qurumları səylərini birləşdirib buna qarşı ciddi tədbir görməlidir".

**❑ Məğrur MƏRD**
**Fotolar müəllifindir**



**Elan**

**Əliyeva Elmira Sahib qızına 1995-ci ildə verilmiş 64259 saylı mülk kağızı itdiyi üçün etibarsız sayılır.**

# Bakı sakini bank əməkdaşlarını dələduzluqda günahlandırır

**Avtomobili mənimsənilən Aygün Mehmandarlı:** "Üstümə qışqırdı ki, bizim arxamızda duranlar var və bizə heç nə edə bilməzsən..."



**Bakı şəhər sakini Aygün Teymur qızı Mehmandarlı "BTB bank"ın əməkdaşlarından şikayətçidir. Onun sözlərinə görə, bankın əməkdaşları onun avtomobilini qanunsuz olaraq ələ keçiriblər. A. Mehmandarlı məsələ ilə bağlı müvafiq qurumlara dəfələrlə müraciət etsə də heç bir yardım ala bilməyib.**

Buna görə də "Yeni Müsavat" qəzetinə müraciət edərək, məsələni ictimailəşdirmək qərarına gəlib. O, şikayətini geniş formada aşağıdakı kimi bildirib: "2014-cü ilin 20 avqust tarixində 2013-cü ilin istehsalı olan "MercedesGL" markalı avtomobilimi BTB bankda girov qoyub, 36 min dollar pul götürmüşəm. 2015-ci ilin may ayına qədər ödənişlərim oldu, sonra isə devalvasiya ilə əlaqədar maddi çətinliklər yaşadım. Gözəllik salonu işlədirdim, onu da bağladım və gəlirim tamamilə kəsildi. Dəfələrlə banka müraciət etdim ki, mənim müqaviləmi yeniləyin ki, aylıq faizim aşağı düşsün. Onlar isə bu istəyimi təmin etmədilər. Bildirdim ki, o zaman nəyə gücüm çatırsa, onu ödəyim. Bununla da razılaşmayaraq bildirdilər ki, müqaviləyə uyğun olaraq hər ay 1800 dollar ödəməlisən. Bankın bəzi əməkdaşları mənə zəng edərək bildirdilər ki, gəlin gedək bizimlə çay içək, sizə kömək edərik. Mən də onları acıladım və getmədim. Daha sonra onlar məhkəməyə müraciət edib, avtomobil üzərində həbs tələb etdilər. Nizami Rayon Məhkəməsi isə avtomobil üzərinə həbs qoyulmadan işə baxılmasını təmin etdi.



Sonra bank Apelyasiya Məhkəməsinə müraciət etdi. Nəticədə avtomobili istifadə etməyimə qadağa qoyuldu. İki azyaşlı övladım var ki, onların da səhhətində ciddi problemlər var. Uşaqlarımı müalicə etdirmək və bankın borcunu qaytarmaq üçün avtomobilimi satmaq qərarına gəldim. 2016-cı il fevralın 23-də banka yaxınlaşdım. Bankın əməkdaşı Samir Qəhrəmanov dedi ki, sizi sədrin yanına aparacam, məsələni aydınlaşdıraq. Daha sonra isə Cavid Zeynalov adlı şəxslə görüşdük. İçəri girən kimi Cavid Zeynalov başladı qışqırmağa ki, borcu nə üçün ödəmirsən, dövlətin pulunu niyə yemisən. Dedim ki, kimsənin pulunu yeməmişəm, avtomobilimi satıram ki, borcu ödəyək. Onlar avtomobili ucuz qiymətə satdığımı öyrəndikdən sonra təklif etdilər ki, maşını lizinqə sala bilərlər. Ancaq bildirdilər ki, maşını 2 günlük bizə ver ki, məsləhətləşək. 7800 manat da pul istədilər. Samirlə Cavid mənə dedilər ki, kişiliyimizə and olsun ki, maşınına heç nə ola bilməz. Get qərarını ver, gəl işi həll edək".



**Şikayətçi bildirib ki, bu hadisədən sonra avtomobili də əlindən çıxıb və indiyə qədər harada saxlanıldığını bilmir:** "Avtomobilin nömrələrini çıxarıb, evə gəldim. Sonra qərara gəldim ki, lizinqə verməyib, satış edim. Çünki uşaqlarımı müalicə etmək üçün mənə təcili pul lazım idi. Ancaq Samir Qəhrəmanov zənglərimə cavab vermədi. Nəhayət, Samirlə danışa bildim və o məni yenidən banka çağırdı. Yenə də Cavid Zeynalovla görüşdüm. Bu zaman isə o bildirdi ki, sənə heç bir güzəşt olmayacaq. Qışqırdı ki, bizim arxamızda duranlar var və bizə heç nə edə bilməzsən. Açıq şəkildə bildirdilər ki, bu bankın problemi sənlədir və sənə heç bir güzəşt olmayacaq. 2016-cı ilin 23 fevral tarixindən də bu günə qədər avtomobilimdən xəbərsizəm. Banka da müraciət edəndə deyirlər ki, sənin avtomobilin bizdə yoxdur və Samir və Cavid də bankın deyil, lizinqin əməkdaşlarıdır. Nəticədə hələ də hər ay borcu qaytara bilmədiyim üçün faizlər artır və artıq 48 min dollar borcum yaranıb. Üstəlik, avtomobilim də əlimdən çıxıb. Bütün müvafiq qurumlara müraciət etmişəm, ancaq heç kim mənə kömək etmir. Bank adımdan saxta sənədlər təqdim edib icra şöbəsinə ki, Aygün Mehmandarlı avtomobilini könüllü olaraq banka təqdim edib. Ancaq yuxarıda da qeyd etdiyim kimi, bu, belə deyil. Saxtakarlıq yolu ilə avtomobilimi yuxarıda adlarını çəkdiyim iki şəxs mənimsəyib. Bir daha qeyd edirəm ki, məhkəmənin qərarı ilə yalnız mənim avtomobili istifadə etməyimə qadağa qoyulub. Banka da ona görə yaxınlaşmışdım ki, borcumu ödəyim və avtomobilimi satmaq üçün icazə alım. Bu adamlar isə mənim şəxsi mülkümü mənimsəyiblər. Üstəlik, borcumu da silməyiblər. Bütün sənədlərim də əlimdədir. Onu da deyim ki, avtomobilim qiymətləndirilən zaman 110 min manat qiymət qoyulub".

**Şikayətçinin adını hallandırdığı şəxslərlə əlaqə qurmağa cəhd etsək də zənglərimizə cavab vermədi.**

**❑ Əli RAİS**

YENİ MÜSAVAT
N 152 (6766) 21 iyul 2017

# "Qarabağ" Tiraspola kaş ki, getməsəydi...

## "Qarabağ"ın rəqibinin Moldova klubu "Şerif"in olmasını istəməzdik, amma daha olan oldu...

**"Qarabağ" Gürcüstanın "Samtredia" klubuna iki oyununun nəticəsinə görə 6:0 qalib gələrək inamla Çempionlar Liqasının III təsnifat mərhələsinə vəsiqə qazanmaqla həm azarkeşlərini sevindirib, həm də Azərbaycanın UEFA-da reytinqini bir pillə irəliyə aparıb.**







İndi Azərbaycan UEFA-nın reytinqində 21-ci pillədə qərarlaşıb. "Samtredia"ya 1:0 qalibiyyətdən sonra "Qarabağ" ölkəmizin hesabına 0,250 xal qazandırıb. Nəticədə son 5 ilin əmsallarına görə hesablanan reytinqimiz 16.625-ə çatıb. Bu nəticə ilə Azərbaycan Kipri keçərək 21-ci pilləyə yüksəlib.

"Qarabağ" UEFA-nın klub reytinqində də üç pillə irəliləyərək 75-ci yerə qalxıb.

***

"Samtredia" ilə oyun baş məşqçi Qurban Qurbanovun qurduğu plan əsasında baş tutdu. "Qarabağ"ı sanki tənqid etməyə öyrəncəli bəzi idman yazarları Tiflisdəki oyunda Ağdam klubunun istənilən kimi oynamadığı qənaətindədirlər. Bunu Qurban Qurbanovdan da soruşdular. "Bizim zəif oyunlarımız az olmayıb. Futbol elə oyundur ki, zəif də ola bilərik, məğlub da ola bilərik. Qələbələrimizi isə çox böyütmək istəmirəm. Hələlik kiçik addımlarla irəliləyirik. Klub olaraq bizim də problemlərimiz var. Hazırda futbolçularımdan tam gücü ilə oynamasını tələb edə bilmərəm. Onların bir-birinə uyğunlaşması üçün hələ vaxt lazımdır" deyən, baş məşqçi deyə bilməzdi ki, ay qardaşlar, sizə nəticə lazımdır, yoxsa əjdaha "Qarabağ"?. Klub ilk oyunda mərhələnin taleyini həll etmişdi, ikinci oyunda da uduzmadı, əksinə, qalib gəldi. Baş məşqçiyə o vaxt bu cür irad tutmaq olar ki, klub candərdi meydana çıxsın, nəticəyə oynasın, hakimin final fitini gözləsin. Ümumiyyətlə, bu cür qarşılaşmalarda məşqçinin ixtiyarında ikinci heyət olmalıdır ki, həm onları sınaqdan çıxarsın, həm əsas oyunçuları növbəti mərhələyə hazırlaşmağa imkan versin. Bizim loru dildə başa düşdüyümüz futbol da, taktika da budur, yeni Amerika kəşf etməyə ehtiyac yoxdur, klubu da tənqid etməyə. Doğrudur, hər bir yazar oyunu daha fərqli rakurs da görür, razı qalmadığı çox məsələlər olur. Amma bu yerdə tənqidin və meydanda özünü öldürən "Qarabağ"ın yeri yox idi. Yeri gəlmişkən, mən "Şehiç varkən hücumçu almaq yerinə qapıçı niyə alırlar" kimi suala Tiflisdə cavab tapa bildim. "Qarabağ"ın yeni qapıçısı sınaqdan yaxşı çıxdı, nəzər dəyməsin...

***

"Kukesi"yə isə nəzər dəydi. Hətta qarabağlılar demişkən, "çər dəydi"..."Şerif"ə qalib gəlmək şansını yelə verdi. Göydəndüşmə penaltini belə vura bilmədilər. Bilmirəm, nə hissdir, nəsə bu "Şerif"dən "gözüm su içmir". Ötən yazılarda da qeyd etmişdim ki, "Qarabağ"ın rəqibinin Moldova klubu olmasını istəmirəm. Amma daha olan oldu...

Matçın geniş videoxülasəsindən çıxış edib oyuna dəqiq qiymət vermək olmur, amma "Kukesi" bu qarşılaşmada qələbəyə daha yaxın idi. İlk yarıda 2 top fərqi ilə üstün olub, mərhələni keçə bilməmək üzücüdür. "Şerif"in də buraxdığı qollar biabırçı idi. Sanki müdafiə yox idi. "Şerif" meydanda azlıqda da qalıb, amma "Kukesi" yenə heç nə edə bilməyib. Mühüm bir oyunda penaltinin o cür vurulması isə...yada "Kukesi" ilə bağlı bir neçə gün əvvəl danışılmış oyunlarla bağlı polis araşdırması düşür vallah. Bilirəm, absurd kimi görünür, amma bu "Kukesi" iki rahat top vurub, sonra penaltini qaçırması, "Şerif"in qırmızı vərəqəsi...Mən heç oynamadım, amma bilirəm ki, bukmeyker kontorlarında təkcə hesabdan deyil, deyəsən, qırmızı vərəqə, penalti kimi cəzalardan da pul qazanmaq olur. Nə yazsam, "Kukesi"nin mənə şübhəli görünən məğlubiyyətinə görə ürəyim soyumur...

***

"Şerif" "Qarabağ"dan güclü klub deyil, amma futbolda hər şeyi güc həll etmir ki...Düzü siyasi tərəfinə gəlsək, "Qarabağ"ın eləcə də digər klublarımızın separatçı bölgə kimi tanınan klublarla qarşılaşması arzuedilən deyil. Adamda nəsə diskomfort yaradır. Nə olsun ki, "Şerif" Moldova və UEFA bayrağı altında çıxış edir, Dnestryanı problemin kökünü dünya bilir. Amma daha nə etmək olar? Gərək Tiraspola gedək...

Amma əvvəl Bakıda oynamaq lazımdır ki, bu bizi sevindirməlidir. Burda güclü oyun göstərib "Şerif"i də evə "üzüqoylu" göndərə bilsəydik...

***

Qol.az saytı Ağdam klubunun rəsmi "Facebook" səhifəsinə istinadən yaydığı xəbərə görə, Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək ilk oyun iyulun 25-i saat 21:00-da başlayacaq. Cavab matçı isə 1 həftə sonra Moldovada oynanılacaq. Qurban Qurbanovun yetirmələri artıq məşqlərə başlayblar. Baş məşqçi Qurban Qurbanov komandaya öz bazalarında məşq keçib. "Samtredia" ilə matçda meydanda olan futbolçular bərpa məşqi ilə kifayətləniblər. Digər oyunçular isə əvəzedici heyətlə ikitərəfli oyun keçirib.

"Şerif"in heyətində həm yerli, həm də əcnəbi futbolçular var. Bir daha yada salaq ki, klubun əsas qapıçısı xorvat Zvonimir Mikuliçdir. Müdafiədə Viktor Olivyera, yerli futbolçu Petr Raku oynayır. Yarımmüdafiə xəttində braziliyalı Jo Santoş yer alır. Yarımmüdafiədə daha bir əcnəbi hollandiyalı Joremi De Noyerdir. Hücumda da "Şerif" əcnəbilərə üstünlük verib. Stefan Muqoşa Çernaqoriya futbolçusudur. Daha bir diqqətə layiq hücumçu isə Belçikalı legioner Zidi Badibanqadır.

Bu arada xəbər yayılıb ki, "Palermo"nun futbolçusu Karluş Apna Embalonun "Qarabağ"ın maraq dairəsinə düşüb. Yerli media "Sportitalia"ya istinadən məlumat yayıb ki, bu transferin gerçəkləşməsi üçün Ağdam klubu "Palermo"ya müraciət edib. Müraciətə yaxın günlərdə cavab veriləcəyi bildirilib.

23 yaşlı Qvineya-Bisaulu yarımmüdafiəçi ötən mövsüm A seriyasında 12 oyunda meydana çıxıb, 1 qol vurub və 1 məhsuldar ötürmə edib.

"Şerif"i də keçsəydik...

**Nazim SABİROĞLU**









YENİ MÜSAVAT
Son səhifə
N 152 (6766) 21 iyul 2017



## Akulanı əlləri ilə xilas etdi

**Amerikanın Biç-Heyven şəhərində çimərliyə buraxılmış akulanı xilas ediblər. Şahidlərin dediyinə görə, həcm etibarilə böyük olmayan akula sahilə tərəf üzüb. İstirahət edənlərdən biri onu əlləri ilə tutub. Daha sonra akulanı xilasedicilər təhvil alıblar. O, balina ilə dənizə girib və sahildən xeyli aralanıb. Qum akulaları Nyu Cersi sahillərində daha çox yaşayır. Onların uzunluğu 3.7 metrə yaxındır. Bu akula növü öz ləngliyi ilə seçilir və heç vaxt ilk olaraq insana hücum ediblər.**

17 iyulda isə böyük ağ akula CAR-dakı məktəbliyə hücum edib və onu parçalayıb.

## Varlılar əylənmək üçün bu qəbiləyə baxmağa gəlir

**Hindistanın Andaman adalarında yaşayan Jarava qəbiləsi son zamanlarda dünya mediasının gündəmindən düşmür. 1990-cı illərın sonunda tapılan qəbilənin bu qədər məşhurlaşmasının səbəbi isə varlı adamların əyləncəsinə çevrilmələridir.**

"Daily Mail"in xəbərinə görə, tətil üçün andaman adalarına gedən varlılar Jarava qəbiləsinin məskunlaşdığı yerlərə gedirlər. Turistlər Jarava qəbiləsinin üzvlərini gördükləri zaman onlardan rəqs etmələrini istəyirlər. Qəbilə üzvləri də onlardan yemək almaq üçün dayanmadan rəqs edirlər. Jarava qəbiləsinin üzvləri adət-ənənələrinə uyğun olaraq əyinlərinə paltar geyinmirlər. Turistlər isə çılpaq insanların onların qarşısında rəqs etmələrindən zövq aldıqlarını deyirlər. Müasir dünya ilə əlaqələrini kəsən jaravalar yad adamlarla danışmırlar və əlaqə yaratmırlar. Onlar uzun illərdir ki, meşədə yaşayaraq öz adət-ənənələrini yaşadırlar.

# Paxlava içkisi hazırlandı

**Ağır bir şirniyyat olduğu üçün qovurucu yay günlərdə çoxda tərcih edilməyən paxlava ilə bağlı maraqlı bir kəşf edilib. Adanadakı bir kafe süd, buz, şəkər şurubu və Antep fıstığı tozunu bir blenderdən keçirərək, "içilə bilər paxlava" adıyla müştərilərə servis ediir. 8 TL-dən gündəlik ən azı 100 bardaq "içilən baxlava" satdığını söyləyən kafenin sahibi Veysel Şakir deyib ki, bu yeni içki növü ilə bağlı müştərilərin şərhləri çox yaxşıdır: "Adanada yeni bir dad qazandırdıq".**



Şakir eyni zamanda deyib ki, gündə 100 stəkan bu içkidən satıla bilər. Müxtəlif təcrübələr keçirərək paxlavanı hazırkı formasına gətirən Şakir deyib ki, daim yeniliklərə açıq olub və yeni dadlar axtarıb.

# Cənubi Koreyada 149 iti ət fermasından xilas etdilər



**Cənubi Koreyanın Yesan bölgəsində 149 it xilas edilib. Onlar it ətindən sosiska, kolbasa hazırlamağa hazırlaşırdılar. Bu barədə Heyvanları Müdafiə Təşkilatının press relizində yazılıb. İt fermasının sahibi isə öz fəaliyyət növünü dəyişdirməyə qərar verib və heyvanların müdafiəsi ilə məşğul olub. O, itləri buraxmağa və kənd təsərrüfatı mədəniyyəti ilə məşğul olmağa qərar verib. Sözügedən təşkilat ona bu planını həyata keçirməyə yardım edir.**

Fermada saxlanılan heyvanların böyük əksəriyyətini ABŞ-dakı heyvan sığınacağına göndəriblər. Bir neçə küçüyü isə böyüyənə qədər Cənubi Koreyada saxlamağa qərar veriblər. Bu itləri ümumən ildə bir dəfə keçirilən Poknal günlərində kəsirlər. Bugünlərdə it ətindən hazırlanan şorbalar bişirilir. İt ətinin 70-80 faizi məhz həmin ərəfədə idxal edilir. 2014-cü ildən etibarən təşkilat Koreyada 10 it fermasının bağlanmasına nail olub.

Doğumdan sonra idrar qaçırma müalicəsində istifadə olunan və son illərdə böyük dartışmalara səbəb olan vaginal hörgü implantı yüzlərlə qadının həyatını qaraldıb. Vaginal hörgü implantından əziyyət çəkən 43 yaşındakı bir qadın məhz bu səbəbdən ərinin başqa qadınlarla birlikdə olmasına icazə verdiyini etiraf edib. 2 uşaq anası Cat Lee çəkdiyi ağır ağrılara görə yeriyə və ayaq üstə dayana bilmir. Cinsi münasibət yaşaya bilməyən Lee məhz bu səbəbdən ərinə başqa qadınlarla birgə olmağına icazə versə də, sonuncu xanımına bağlılığından və sevgisindən onun bu təklifini rədd edib. Lee, implantı aldırmaq üçün bıçaq altına girsə də, bu, vəziyyəti daha da pisləşdirdi. O, bu durumu düzəltmək üçün 375 min pound xərcləsə də, son 8 ildə yaşadığı acını azalda bilməyib.




**QOÇ** - Sizə borclu olanlardan, eləcə də məvacib prosesində gecikən pullarınızı əldə etməyə çalışın. Əks təqdirdə, nöbəti bir həftə ərzində buna nail olmayacaqsınız.

**BUĞA** - Planetlərin yerdəyişməsi yaxınlaşdığından hər hansı mübahisə və ya münaqişəyə həvəs göstərməyiniz zərərinizə olar. Belə bir mənzərə yaransa, müəyyən ünvanlara qonaq getməyə dəyər.

**ƏKİZLƏR** - Sevinməyə dəyər. Çünki astroloji göstəricilər əksər bürclərlə müqayisədə yalnız sizin qazanmaq ehtimalınız olduğunu təyin edib. Deməli, əzmkarlığınızı artırmaqla buna nail olmalısınız.

**XƏRÇƏNG** - Nahardan sonra Ay bürcünüzdə olduğu üçün sağlamlığınıza fikir verməlisiniz. Ağır fiziki işlərdən ehtiyatlanmalısınız. Qərar qəbul edərkən müsahib rəyini mütləq nəzərə alın.

**ŞİR** - Kifayət qədər məhsuldar bir gündür. Emosionallığınızı soyuqqanlılıqla əvəz edə bilsəniz, bir çox sahələrdə uğurlarınız olacaq. Şəxsi işlərinizdə əsaslı dönüş də başlaya bilər.

**QIZ** - Çoxsaylı görüşlərdə iştirakınızdan xəbər verən Göy qübbəsi maraqlı təkliflər alacağınızı da bəyan edir. Yeni işlərə başlamaq və ya bu barədə fikir mübadiləsi aparmaq üçün yaxşı vaxtdır.

**TƏRƏZİ** - Yeni əlaqələrə başlamaq, fəaliyyət zəminində dönüş yaratmaq üçün sərfəli tarixdir. Bu istiqamətdə xərcə düşməkdən qorxmayın. Çünki müdafiənizdə duran ulduzlar sizi qoruyacaq.

**ƏQRƏB** - İxtiyarınızda olan bu süst gündə həmkarlarınızla münasibətdə təmkinli olun. Bunu bacarsanız, sonrakı müddətdə problemlə rastlaşmayacaqsınız. Mühüm sirlərinizi hər kəsə deməyin.

**OXATAN** - Son vaxtlar işlə bağlı passivliyə mübtəla olmağınız sizi yormaqdadır. Bu gün də belə bir şey gözlənildiyindən vaxtınızı əyləncələrə həsr edin. Sevgidə kobudluğa yol verməyin.

**OĞLAQ** - Əsas vaxtınızı münasibətlər zəminində qurun. Dostluq-yoldaşlıq istiqamətində, ələlxüsus da sevgi məsələlərində sevindirici anlarınız olacaq. Amma uzaq səfərə çıxmaq fikrindən daşının.

**SUTÖKƏN** - Qarşınızda perspektivli və yorucu işlər durur. Ulduzlara inansaq, ötən günlərdə yol verdiyiniz hansısa səhvi düzəltmək imkanı da qazanacaqsınız. Etibarsız adamlardan uzaq olun.

**BALIQLAR** - Olduqca riskli gündür. Bu səbəbdən istənilən addımı atmazdan qabaq mütləq mövcud reallığı nəzərə almalısınız. Təcrübəli adamlardan yararlanın. Yerli-yersiz özünüzü tərifləməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Övladı tərs olan valideyn sevinməlidir

**Bir qrup psixoloq geniş əhatəli tədqiqat apararaq sübut edib ki, böyüklərlə höcətləşən tərs uşaqlar gələcəkdə uğurlu olur, demək olar, həmişə öz məqsədlərinə çatırlar.**



Elmi müşahidələr qırx il ərzində aparılıb. Alimlər uşaq inadkarlığının onların gələcək həyatına təsir dərəcəsini müəyyən etmək üçün nəzərdə tutduqları tədqiqatın birinci mərhələsini həyata keçiriblər. Tədqiqatda 700 uşaq iştirak edib. Bunun üçün valideynlərinə qarşı çıxan inadkar məktəblilər seçilib. Uzun illər keçəndən sonra psixoloqlar onların maddi durumu ilə maraqlanıblar. Nəticədə məlum olub ki, inadkar adamlar çox vaxt təhsildə uğur qazanır, onların karyeraları sürətlə inkişaf edir və həyatda bir çox digər nailiyyətlərə imza atırlar.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Nazim SABİROĞLU
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.100